

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 24 (24.406)

*22 iyun 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Qafqazda sülhə nail olaraq Qərbi Azərbaycana qayıdacağıq

## Ulu Öndər Heydər ƏLİYEV:

“*Hər şey ədalət naminə dəyişəcək bizim bölgədə. Siz gələcəkdə hələ gedib öz Göyçə torpağınızı da görəcəksiniz. Öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm.*”



## Prezident İlham ƏLİYEV:

“*Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.*”

Hərdən düşünürəm, milli faciələrimizin səbəbini, başlandığı zamanı dəqiqləşdirməyə çalışıram. Yorğun düşüncələrimdən bir haray qopur: Gülüstan, Türkmənçay müqavilələri ilə yarımcan edilən Azərbaycan! Qulaqlarıma Kərkidən Göyçəyə, Ərzurumdan Dərbəndə ulularımızın səsi gəlir. Vaxtilə ermənilərə pay verilən torpaqlarımızın naləsi eşidilir. Bir zamanlar yurdsuz-yuvasız, dünyanı sərgərdan dolaşan ermənilərə sığınacaq verməyimizdən və onların nankorluğundan qeyzə gəlirəm. Xalqımızı doğma yurd-yuvasından qovan və dünyaya özlərini “zavallı”, “günahsız” millət kimi göstərməyə çalışan, iblis simalı ermənilərin bəşəriyyəti aldadan “genosid” harayından damarımda qanım donur. Elə həmin vaxtlarda millətimizin məsləhətçisi “Troyka”, müəllifi Mikoyan, Sumbatov, Qriqoryan, Markaryan və başqaları ucbatından yeni faciələrlə üzləşməsinə mənəvi dəyərlərin məhv olunması da əlavə edildi. Xalqın görən gözü, düşünən beyni qətl olundu. Mentalitet, din, yaddaş soyqırımına məruz qaldı. Soydaşlarımız kütləvi deportasiya burulğanına düşdü. Qərbi Azərbaycanda – qədim Oğuz yurdunda coğrafi toponimlərin erməniləşməsi heç bir maneə olmadan aparıldı. Milli yaddaşın məhvi sürətləndi. Beləcə, zaman-zaman odlara düşdük.

Səbəbini aramadan, axtarmadan namərd qonşularımızın “ərköyünlüyünü” ən qanlı faciə ilə bitmiş sandıq, ağıllandıqlarını zənn etdik. Daha da şirnikləndiklərini, quduzlaşdıqlarını gördük. Yanıldığımızı tarix yenidən təkrar olunanda başa düşdük. 1988-93-cü illərin müdhiş günləri isə qabaqda idi. 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, Vedidə – indi Ermənistan adlanan əzəli Azərbaycan torpaqlarında yaşayan həmvətənlərimiz dədə-baba yurdlarından qovuldular. Tarixi keçmişimizi yaşamağa yenidən məhkum olduq. Qərbi Azərbaycan torpağını bütövlükdə itirdik. Sovet hakimiyyəti dövründə, təxminən, 70 il xalqın qan yaddaşından silməyə aramsız cəhdlər göstərilsə də, bu mümkün olmadı və nəhayət, o an yetişdi. Azərbaycan xalqı öz müstəqilliyini qazanıb Ulu Öndərini hakimiyyətə gətirdi və bu gəliş xalqımızın qurtuluşu ilə bərabər qayıdışı da oldu.

Bəli, qayıdışımız mənəvi kimliyimizə dönüşümüzün başlanğıcı oldu dahi rəhbərin hakimiyyətə gəlişi ilə. İllər sonra ədaləti bərpa edən Azərbaycan Ordusu 44 gündə zəfər çalıb 30 ildir, yurd-yuvasından didərgin düşən insanları doğma evinə qaytardı. Şuşada, Laçında dalğalanan ay-ulduzlu bayrağı görəndə Ulu Öndərin ***“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”*** kəlamı yada düşdü. Dahi rəhbərin arzularını, Azərbaycan üçün düşündüklərini bir-bir yada saldıq və əmin olduq ki, zorla öz yurdlarından köçürüləndən sonra Azərbaycanın müxtəlif rayonlarında yerləşdirilən qərbi azərbaycanlılar da öz doğma torpaqlarını görəcəklər. Çünki Göyçədən, Dərələyəzdən, Vedidən və digər əzəli dədə-baba yurdlarımızdan məcburi şəkildə çıxarılan insanlar öz doğma vətənləri Azərbaycanda yurd-yuva salsalar da, ürəkləri hələ də dünyaya göz açdıqları yurdlarda döyünür. Onlar Göyçənin, Dərələyəzin ətirli havası, bərəkətli torpağının həsrətini çəkirlər. Onlar ömürlərinin son baharında öz doğma ocaqlarının qapısını açmaq istəyirlər, o yerlərin ətirli havasını ciyərlərinə çəkməyi arzu edirlər. Və inanırlar ki, bunlar olacaq. Onların inamı sonsuzdur və bu inam əbəs yerə deyil. Vətən savaşında qazandığımız zəfər insanların qəlbində bu inam işığını yandırıb. Müzəffər Ali Baş Komandanın ***“Biz də, qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməliyik. İnanmalıyıq və eyni zamanda addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik. Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq”*** sözləri insanları gələcəyə ümidləndirir. Onlar əmindir ki, Şuşada, Laçında, Kəlbəcərdə yanan çıraqlar kimi Zəngəzurda, Göyçədə, Mehridə də odumuz-ocağımız alovlanacaq. Ağdama, Şuşaya, Laçına sevinə-sevinə qayıdan sakinlər kimi onlar da öz ata yurdlarına dönəcəklər. Axarlı-baxarlı Göyçə gölünü, gözəl meşəli, gur çaylı Dərələyəzi, Naxçıvanı anası Azərbaycana birləşdirən Mehri dağlarını görəcəklər. Bütün qərbi azərbaycanlılar buna əmindir, çünki Azərbaycanın dünyaya meydan oxuyan Müzəffər Ali Baş Komandanı və bir qarış torpağı öz canından əziz bilən nər oğulları var.

Dünyaya hərb meydanında meydan oxuyan, siyasət masasında sözünü deməyi bacaran sülhsevər Ali Baş Komandanın sayəsində ***“Hər şey ədalət naminə dəyişəcək bizim bölgədə. Siz gələcəkdə hələ gedib öz Göyçə torpağınızı da görəcəksiniz. Öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm”***, – deyən Ümummilli Lider Heydər Əliyevin bu arzusu da çin olacaq. Çünki artıq dünya bilir və anlayır ki, regionda Azərbaycanın diktəsi keçərlidir və onun tələbləri yerinə yetirilir. Bütün dünya bilir ki, ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti olan ərazi bizim tarixi torpaqlarımızdır. Ancaq biz o torpaqlara Müzəffər Ali Baş Komandanın dediyi kimi, tank üstündə, hərbi yolla deyil, sivil qaydada, mülki nəqliyyat vasitələri ilə, sülh şəraitində qayıdacağıq. Əminik ki, nəyi nə zaman, necə etməyi hamıdan yaxşı bilən Azərbaycan Prezidentinin həmin proqnozunun da reallaşdırılmasının şahidi olacaq Qafqazda sülhə nail olaraq Qərbi Azərbaycana qayıdacağıq.

**Ramiyə ƏKBƏROVA**


Qarabağın hava limanları 2

Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” festival-konqresi keçirilir 3

Qərbi Azərbaycana qayıdış yolu Batabat yaylağı 6

O çadırdan bu çadıra: yollar yenidən birləşir, yarım qalan arzular gerçəkləşir 8

Zəngəzurluların izi ilə 11

Qərbi Azərbaycan xalçaları kodlaşdırılmış rəngarəng bir kitabədir 12



# Qarabağın hava limanları

Qarabağın otuzillik erməni əsarətindən xilas olmasından sonra qarşıda duran mühüm vəzifələrdən biri bölgənin, eləcə də bütün Cənubi Qafqaz və Yaxın Şərq regionlarının gələcək iqtisadi və mədəni həyatında mühüm rol oynayan sürətli, komfortlu və təhlükəsiz nəqliyyat-kommunikasiya şəbəkəsinin yaradılması olmuşdur. Qəhrəman ordumuzun Zəfər yazdığı Zəfər yolunu çox çətin relyef və ərazi quruluşuna rəğmən cəmi on ayda tikib qurtaran Azərbaycan dövlətinin bölgədə bir-birinin ardınca inşa edib istifadəyə verdiyi mühüm infrastruktur layihələri, bu mənada, təkcə Qarabağın və Şərqi Zəngəzurun deyil, eləcə də bütün ölkəmizin və yaxın ölkələrin də inkişafında mühüm rol oynayacaq, yeni regional layihələrə mühüm töhfə verəcək. Qısa müddətə inşa olunub istifadəyə verilən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları yerləşmə mövqeyi, logistika imkanları, texniki göstəriciləri və ən mühümü, təhlükəsizliyə verdiyi töhfə ilə son zamanlar xüsusilə diqqətləri cəlb edir.

Bir az keçmişə qayıtsaq, hələ 1974-cü ildə Azərbaycanın vəsaiti hesabına tikilib istifadəyə verilmiş Xocalı Hava Limanının o zaman yerli əhəmiyyətli olmaqla, əsasən, kiçiktutumlu yüngül təyyarələrin qəbulu üçün nəzərdə tutulduğunu deyə bilərik. Erməni işğalı dövründə, 2012-ci ildə separatçı xunta rejimi hava limanını yenidən təmir edib istifadəyə verməyə çalışsa da, Azərbaycan dövlətinin bu məsələ ilə bağlı beynəlxalq təşkilatlara etirazı nəticəsində buraya bir təyyarə də qəbul edilməmişdir. Nəhayət, 2023-cü il 19 sentyabr antiterror əməliyyatı nəticəsində Xocalı Hava Limanı da dövlətimizin nəzarətinə keçmişdir. Xankəndidən cəmi 10 kilometr məsafədəki bu hava limanından, nəhayət, sülhməramlıların hərbi texnikasının tamamilə çıxması rusların təkcə Qarabağdan deyil, bütün Azərbaycan torpağından da son gedişləri oldu. Strateji obyekt kimi Xocalı Hava Limanında Azərbaycan Bayrağının dalğalanması isə həm də simvolik olaraq tezliklə bölgəmizdə daimi sülhün bərqərar olunacağına bir işarədir. Xocalı Hava Limanı bundan sonra ölkəmizin iqtisadi-mədəni inkişafına və yurdlarından köçkün düşmüş insanların böyük qayıdışına xidmət edəcəkdir.



Azad Qarabağın dünyaya açılan ilk böyük hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarə 2021-ci il sentyabrın 5-də Bakıdan havaya qalxan "Airbus" tipli "Qarabağ" sərnişin təyyarəsi olub. Təməlqoyma mərasimi 2021-ci ilin 14 yanvarında olmuş bu hava limanı artıq 2021-ci ilin 26 oktyabrında ölkə Prezidenti cənab İlham Əliyev və qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi açılış mərasimi ilə rəsmən fəaliyyətə başlamışdır. Bakıdan Füzuliyə qədər yolu cəmi 35 dəqiqəyə qədər qısaldan bu hava limanı uçuşların təhlükəsizliyini təmin etmək üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) bütün tələblərinə uyğun olaraq ən müasir naviqasiya sistemləri ilə təchiz olunub. Dövlət başçımızın da dəfələrlə vurğuladığı kimi Füzuli Beynəlxalq Hava Limanı işğaldan azad edilmiş ərazilərimizə gəlib buradakı reallıqları öz gözləri ilə görmək istəyən xarici dövlət başçıları, diplomatlar, media təmsilçilərinin ən qısa, ən rahat və təhlükəsiz marşrutudur. Qeyd edək ki, bu marşrutdan istifadə xarici turistlər üçün də olduqca faydalıdır. Çünki hazırda Qarabağın incisi Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin də sayı kifayət qədər çoxdur. Başqa sözlə, Füzuli Beynəlxalq Hava Limanı regionda turizmin canlanmasına da ciddi töhfə verir.

Füzuli Beynəlxalq Hava Limanı iqtisadi-logistika əhəmiyyəti ilə yanaşı, ölkəmizin yüksək səviyyəli beynəlxalq əlaqələrinə də bir növ şahidlik etməkdədir. Belə ki, bu hava limanına eniş edən qardaş Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan prezidentləri, həmçinin dost Belarusun dövlət başçısı ali qonaqlar kimi qarşılanıb, burada onların şərəfinə fəxri qarovul dəstələri düzülüb. Ayrıca olaraq dövlət başçımız Prezident cənab İlham Əliyevin Almaniya Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün bu il aprelin 25-də Füzuli şəhərindən birbaşa Almaniyaya uçaraq işgüzar səfərə getməsi suverenliyimizin bərpa olunduğunun qabarıq bir mesajı kimi də Avropada səs gətirdi. Nə qədər görüləcək vacib işlər olsa da, dövlət başçımız Qarabağın yenidən bərpası, burada "yaşıl iqtisadiyyat"ın qurulması istiqamətindəki qətiyyətini əlavə olaraq, bir də Füzuli-Berlin hava yolu marşrutu üzərindən dünyanın nəzər-diqqətinə çatdırdı.

Zəngilan Şərqi Zəngəzurun iki ölkə ilə həmsərhəd, Zəngəzur koridoru üzərində ən strateji nöqtəsində yerləşməklə İkinci Qarabağ müharibəsində və ondan sonrakı dövrdəki proseslərdə diqqətləri cəlb edən bölgəmizdir. Zəngilanın azad edilməsi ilə işğalçı Ermənistanla dövlət sərhədinə çıxan müzəffər Azərbaycan Ordusu bununla da İranla olan dövlət sərhədimizə nəzarəti tam bərpa etmiş oldu. Müharibədən sonrakı illərdə azad olunmuş torpaqlara ilk Böyük Qayıdış, ilk ağıllı yaşayış məntəqələrinin yaradılması da Zəngilan rayonunda olmuşdur. Dövlət başçımız bu rayona dəfələrlə səfər edərək burada aparılan quruculuq və bərpa işləri ilə yaxından tanış olmuş, mühüm təməlatma mərasimləri keçirmişdir. Azad edilmiş ərazilərin ikinci böyük hava qapısı olan Zəngilan Beynəlxalq Hava Limanının isə 2021-ci ilin aprelində təməli qoyulmuş və 2022-ci ilin 20 oktyabrında qardaş ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da qatıldığı açılış mərasimi ilə rəsmən fəaliyyətə başlamışdır. Beynəlxalq standartlara uyğun olaraq uçuşların həyata keçirilməsinə imkan verən Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə də gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Tarixi Xudafərin körpüsündən cəmi 30 kilometr məsafədəki bu hava limanı mürəkkəb relyefə malik bölgədən təhlükəsiz uçuşların həyata keçirilməsi üçün də olduqca əlverişli məkanda yerləşir.

Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşəcək Laçın Beynəlxalq Hava Limanı isə işğaldan azad olunmuş ərazilərdə ölkəmizin üçüncü böyük hava qapısı olacaq. Beynəlxalq standartlara uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialından da istifadəyə imkan verəcək. İşğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edəcək Laçın Beynəlxalq Hava Limanının 2021-ci il avqustun 16-da keçirilmiş təməlqoyma mərasimində Prezident cənab İlham Əliyev bu hava limanının regionun gələcək təhlükəsizliyinə, müdafiə potensialımızın da artırılmasına mühüm töhfə verəcəyini bildirmişdir.

Bu gün tarixi Qarabağ torpaqları özünə qaytarılmış ikinci həyatını yaşayır. Hər tərəfdə insanı dəhşətə gətirən erməni vandalizminin izlərini daşıyan, minalardan təmizlənmiş və on illərlə istifadəsiz qalaraq məhv olmuş torpaqlar üzərində Azərbaycan dövlətinin həyata keçirdiyi quruculuq burada əbədi sülhün və firavan həyatın bərqərar olmasını, bir daha işğalçı və separatçı ayağının bu ərazilərə dəyməməsi və ölkəmizi, xalqımızı sevən hər bir kəsin rahatca gəlib, gəzib, görüb getməsinə hədəflənib. Qarabağdakı hava limanlarımız da dünyanın hazırkı inkişaf dövründə bütün bunlara xidmət edən vacib infrastruktur obyektləri və müasir memarlıq əsərləridir.

**Əli CABBAROV**



# Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” festival-konqresi keçirilir










İyunun 21-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qərbi Azərbaycana qayıdış” festival-konqresi öz işinə başlayıb.











Festival-konqres iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsini ziyarət edib və önünə güllər düzüblər.

Heydər Əliyev Muzeyinə gələn ziyarətçilərə Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar barədə məlumat verilib.

Zəngəzur Milli Parkında, Batabat yaylağında “Qərbi Azərbaycana qayıdış” festival-konqresinin rəsmi açılış mərasimi keçirilib.

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, 2020-ci il dekabrın 10-da Bakıda keçirilmiş Zəfər paradının ssenari müəllifi və aparıcısı, polkovnik Abdulla Qurbani tədbiri açıq elan edib, el ağsaqqalı Dədə Qorqud xeyir-duasını verib. Oğuz elinin çaparları Batabat yaylağının ətrafında bayram rəmzi olan üç tonqal qalayıb.

Sonra “Zəfər” kompozisiyası təqdim olunub. Əlahiddə Ümumqoşun Ordunun Şuşayadək zəfər yolu keçən qəhrəmanları Şuşaya sancılan və Zəfər paradında nümayiş etdirilən Zəfər Bayrağını meydana gətiriblər.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

2023-cü ilin antiterror tədbirlərində əldə etdiyimiz möhtəşəm qələbəyə həsr olunmuş “Zəfər marşı” ifa olunub.

Naxçıvan Dövlət Universiteti Tələbə Teatr Studiyası “Dərələyəz” kompozisiyasını təqdim edib.

2023-cü ildə keçirilmiş “Qərbi Azərbaycana qayıdış” festival-konqresindən yaddaqalan məqamları əks etdirən videoçarx nümayiş olunub.

Festival-konqresin plenar iclasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli açılış nitqi edib. Hər kəsi “Qərbi Azərbaycana qayıdış” festival-konqresində salamlayan Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyması, 2023-cü il sentyabrın 19-20-də isə dövlətimizin suverenliyinin onun bütün ərazisində təmin olunması vaxtilə Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası üçün də real imkanlar yaradıb. 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya qəbul olunub, bu istiqamətdə konkret tədbirlərin icrasına başlanılıb. Naxçıvanda keçirilən növbəti “Qərbi Azərbaycana qayıdış” festival-konqresi də ölkəmizdə bu sahədə görülən işlərin tərkib hissəsi olmaqla yanaşı, həm də xalqımıza qarşı törədilmiş haqsızlıqlara bir daha nəzər salmaq fürsəti yaradacaqdır.

Səlahiyyətli nümayəndə qeyd edib ki, XIX əsrin əvvəllərində imzalanmış “Gülüstan” və “Türkmənçay” müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulub. Xüsusilə də 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Sözsüz ki, deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvi ilə də müşayiət olunub, abidələrimiz dağıdılıb, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənib, açıq şəkildə mono-etnik dövlətçilik və etnik təmizləmə siyasəti həyata keçirilib. 1970-1980-ci illərdə – Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə bu proseslərin qarşısı alınıb, xalqımız növbəti deportasiya və etnik təmizləməyə məruz qalmayıb. Lakin 1987-ci ildə Ulu Öndərin sovetlər birliyinin rəhbərliyindən getməsi Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti acı taleyinin başlanğıcı olub, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu və ən dəhşətli mərhələsi baş tutub. Həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar.

Səlahiyyətli nümayəndə bildirib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regionda yeni reallıqlar yaradan və bunu diktə edən dövlətdir. Müstəqil Azərbaycanın və onun qüdrətli LİDERİNİN mövqeyi sülhə, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanır. Qərbi Azərbaycana qayıdış konsepsiyası da bu üç prinsipə uyğun reallaşdırılır. Hər kəsin öz əzəli torpaqlarında yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Məhz bu səbəbdən də Zəngəzurda, İrəvanda və digər əzəli Azərbaycan torpaqlarında yaşamaq hüququnu beynəlxalq birlik qarşısında qaldıran xalqımız əmindir ki, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışın davamı olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qərbi Azərbaycana qayıdış da reallaşacaqdır.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresi üçün zəngin proqram hazırlandığını diqqətə çatdıran Fuad Nəcəfli plenar və bölmə iclaslarındakı çıxışların, aparılan müzakirələrin ümumi məqsədə çatmaq üçün səmərəli olacağını bildirib, festival-konqresin işinə uğurlar arzulayıb, təşkilatçılara və dəvəti qəbul edib tədbirdə iştirak edən hər kəsə təşəkkür edib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev builki festival-konqresin Azərbaycanın dilbər guşələrindən biri olan Batabat yaylağında təşkil olunmasının daha bir özünəməxsusluğunu diqqətə çatdırıb. Bildirib ki, festivalın təşkil olunduğu bu füsunkar məkandan cəmi bir neçə kilometr məsafədə vaxtilə həmvətənlərimizin yaşadıqları Qərbi Azərbaycan kəndləri yerləşir. Yəni builki festival bizi həm ruhən, həm də coğrafi olaraq Qərbi Azərbaycana daha da yaxınlaşdırır. Bu mühüm tədbirin Qərbi Azərbaycana qayıdış mövzusuna həsr olunmuş sanballı bir ictimai-mədəni müzakirə platforması rolu oynadığını vurğulayan elm və təhsil naziri qeyd edib ki, Qərbi Azərbaycana qayıdış ümummilli məsələdir və hər birimiz bu istiqamətdə əlimizdən gələni etməliyik. Çünki bu, doğma evlərindən, ibadət yerlərindən, mədəniyyət abidələrindən məhrum edilmiş minlərlə həmvətənimizin insan hüquqları məsələsidir. Bu məqsədlə məktəblilər arasında keçirilən “Qərbi Azərbaycana qayıdış” olimpiadası davam etdiriləcək, tələbələr arasında silsilə maarifləndirmə tədbirləri, Gənc Müəllimlərin Qərbi Azərbaycana Qayıdış Forumu təşkil olunacaq, Qərbi Azərbaycana həsr olunmuş elmi araşdırmaları təşviq edən qrantların verilməsi nəzərdən keçiriləcək.



Ardı 4-cü səhifədə



Elm və təhsil naziri “Qərbi Azərbaycana qayıdış” olimpiadasının qaliblərini təbrik edib, festival-konqresin təşkilində əməyi olan hər kəsə təşəkkür edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında vurğulayıb ki, azərbaycanlıların Ermənistan ərazisində yerləşən qədim ata-baba yurdlarından sonuncu deportasiyası zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən 300 minə yaxın soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib. 1988-ci ildə Ermənistandan qovulan qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dollarından artıq təşkil edir ki, beynəlxalq qiymətləndirmə standartlarına görə 37 ildən sonra bu gün bu rəqəm 1 trilyon ABŞ dollarına çatmaqdadır. Soydaşlarımıza dəyən mənəvi ziyanın qədəri isə ölçüyə gəlməzdir. Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməyib. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə hüquqi-siyasi qiymət verib və bununla bağlı 1997-ci il dekabrın 18-də “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında”, 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı” və 2001-ci il avqustun 22-də “Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında” fərmanlar imzalayıb. Bu tarixlərdən başlayaraq hadisələrin elmi təhlili və obyektiv siyasi münasibətlərin formalaşdırılması təmin edilib.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli rəhbərlik etdiyi icma adından hər kəsi salamlayıb, ötən il keçirilən ilk festival-konqresin uğurlu nəticələrindən danışıb. Əziz Ələkbərli festival-konqresi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının ideya müəllifi Prezident İlham Əliyev və xalqımız qarşısında hesabat kimi dəyərləndirib, ötən dövrdə qarşıda duran vəzifələrin icrası istiqamətində görülən işləri diqqətə çatdırıb. Bildirib ki, Qərbi Azərbaycana qayıdış ideyası ilk dəfə



beynəlxalq müstəviyə çıxarılıb, dünyanın bir çox ölkə və qurumlarına, siyasətçilərinə onlarla məktub və müraciətlər ünvanlanıb, icmanın 225 bəyanatı qəbul edilib. Bu gün Qərbi Azərbaycan İcmasının yeddi rəsmi sənədi artıq BMT-nin rəsmi sənədi kimi bütün rəsmi dillərdə və beynəlxalq qurumun üzvü olan bütün dövlətlər arasında yayılıb. 200 il ərzində ermənilər tərəfindən doğma ocaqlarından qovulmuş, artıq geriyə qayıda bilmək ümidini itirməkdə olan qaçqınlarda inam yaradılıb, insanlarımız bu ideya ətrafında sürətlə kənd-kənd, rayon-rayon təşkilatlanıb, Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalar formalaşdırılıb, Azərbaycan Respublikasının 41 rayonu üzrə nümayəndəliklər qərargahla təmin olunub. Bu gün artıq Qərbi Azərbaycana qayıdış tək qərbi azərbaycanlıların və Azərbaycan Respublikasında yaşayan 10 milyon soydaşımızın məsələsi deyil. Bu, 60 milyonluq dünya azərbaycanlılarının və bir çox məqamlarda bütöv Türk dünyasının məsələsidir. Bu, soydaşlarımızın beynəlxalq hüquqa söykənən haqqıdır. Bu, Ulu Öndər Heydər Əliyevin bizə vəsiyyəti, cənab Prezident İlham Əliyevin tapşırığı və atalarımız qarşısında övladlıq, övladlarımız qarşısında atalıq borcumuzdur.

Əziz Ələkbərli festival-konqresin işinə uğurlar arzulayıb.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Qərbi Azərbaycan Araşdırma Mərkəzinin təsisçisi, professor Mahirə Hüseynova bu ağrılı problemin gündəmə çevrilməsində, yüz minlərlə insanın tarixi Vətəninə qovuşmaq istəyini müxtəlif yerli və beynəlxalq təşkilatların platformalarından dünya ictimaiyyətinə çatdırılmasında göstərdiyi ardıcıl dəstəyə görə Prezident İlham Əliyevə şükranlarını çatdırıb, doğma Naxçıvandan həqiqətlərin bəyan edilməsi üçün yaradılan platformaya görə əməyi keçən hər kəsə təşəkkür edib, festival-konqresin təşkilatçılarının işini yüksək qiymətləndirib. Mahirə Hüseynova vurğulayıb ki, qərbi azərbaycanlı ziyalılarla görüşü zamanı konseptual çıxışında Azərbaycan Respublikasının Qərbi Azərbaycandan olan soydaşlarının hər məqamda yanında olacağını bəyan edən cənab Prezidentimiz bu bəyanatı ilə elmi ictimaiyyətin qarşısında mühüm vəzifələr qoydu. Sovet Rusiyasının dəstəyi ilə 1920-ci ildə yaradılan sovet Ermənistanında həyata keçirilən 1948-1953 və sonuncu 1988-1991-ci illər deportasiyaları və çoxminli insan faciəsinin gənc tədqiqatçıların mövzusu olacağına inamını ifadə edən Mahirə Hüseynova Qərbi Azərbaycana Qayıdış Konsepsiyası çərçivəsində görülən işləri diqqətə çatdırıb.

Türkiyənin İğdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma çıxışında Nuh Peyğəmbərin diyarı olan Naxçıvanın, sadəcə, Azərbaycan və Türk dünyası üçün deyil, bütün dünya üçün önəmli bir coğrafiya olduğunu bildirib. Zəngəzur dəhlizinin buradan keçməsi Naxçıvanın, bu mənada, əhəmiyyətini daha da artırır. Zəngəzur dəhlizinin önəminə toxunan Mehmet Hakkı Alma qeyd edib ki, Azərbaycan Ordusunun şanlı zəfəri ilə bitən 44 günlük Vətən müharibəsindən sonra regionda yeni reallıqlar yaranıb. Bunun nəticəsində Zəngəzur dəhlizinin reallaşması da gündəmə gəlib. Türk dünyasını birləşdirən bu mühüm koridor, sadəcə, iqtisadi, ticari və logistik ələqələrin inkişafı deyil, həm də humanizm və sülh prinsiplərini özündə ehtiva edən mühüm sosial layihədir. Türk-İslam mədəniyyəti tarixinin önəmli bir parçası olan Zəngəzur dəhlizi Avropa və Asiyanı birləşdirən mühüm bir körpü rolunu oynayır.

Rektor təmsil etdiyi universitetin təşkilatçılığı ilə Zəngəzur dəhlizi mövzusunda simpoziumun keçirildiyini, simpoziumun nəticələrinin geniş ictimaiyyətə təqdim olunduğunu bildirib, Zəngəzur dəhlizi ilə paralel olaraq Qərbi Azərbaycana qayıdışın da ləyaqətli şəkildə reallaşacağına əminliyini ifadə edib.

Tədbirdə “Qərbi Azərbaycana qayıdış” olimpiadasının qalibi olmuş şagirdlər mükafatlandırılıb.

Bildirilib ki, 2024-cü ildə Elm və Təhsil Nazirliyinin Təhsil İnstitutu, Qərbi Azərbaycan İcması, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığı çərçivəsində “Qərbi Azərbaycana qayıdış” olimpiadası baş tutub. Ölkəmizin müxtəlif bölgələrindən 10 mindən çox şagird bilik yarışında fəal iştirak edib. Onlar Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəni irsi, toponimləri, tarixi şəxsiyyətləri ilə bağlı biliklərini nümayiş etdiriblər. Ötən gün Naxçıvan Dövlət Universitetində 36 şagirdin iştirakı ilə olimpiadanın final mərhələsi keçirilib.



Qədim yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə formalaşdırdığı və yaşatdığı mədəniyyəti təbliğ etməklə yanaşı, əzəli yurd yerinə qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etmək məqsədi daşıyan konqresdə ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçılar bir araya gəlib. İyunun 22-də davam edəcək konqres çərçivəsində keçirilən bölmə iclaslarında elm adamlarının Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yeniliklər dinləniləcək və fikir mübadiləsi aparılacaq.

Festival-konqresdə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Milli Konservatoriyası, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dillər Universiteti, Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi, Bakı Slavyan Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Dövlət Gömrük Komitəsi Akademiyası, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Müəllimlər İnstitutu, eləcə də qardaş Türkiyədən olan universitetlər tərəfdaş qismində iştirak edirlər. Həmçinin Naxçıvan Muxtar Respublikasının şəhər və rayon icra hakimiyyətləri, Mədəniyyət və Təhsil nazirlikləri tərəfdaş qurum kimi iştirak edirlər.

# “Qərbi Azərbaycana qayıdış” festivalı bədii hissə ilə davam edib



İyunun 21-də Zəngəzur Milli Parkının Batabat yaylağında təşkil olunan “Qərbi Azərbaycana qayıdış” festival-konqresi bədii hissə ilə davam edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib.

Tədbirdə Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının kollektivlərinin ifasında Qərbi Azərbaycanın yurd yerlərinə həsr olunmuş mahnılar, folklor nümunələri təqdim olunub, Naxçıvan Dövlət Universiteti Musiqi Kollecinin təqdimatında “Misri” kompozisiyası nümayiş etdirilib.

Festival iştirakçıları Qərbi Azərbaycan tarixi, mədəniyyəti və məişətinə dair nümayiş etdirilən kitab, monoqrafiya, jurnal və qəzetlərlə tanış olublar.

Batabat yaylağının füsunkar mənzərəsi fonunda toy məclisi qurulub, Qərbi Azərbaycandan olan iki gəncin toy mərasimi təşkil olunub. Mərasimdə bu əzəli yurd yerimizin toy adətləri: “Elçilik”, “Nişan taxma”, “Paltar biçmə”, “Çörəküstü”, “Xına”, “Gəlin köçürmə” kimi mərasimlər nümayiş etdirilib. Toy mərasimində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi və Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında



qərbi azərbaycanlı soydaşlarımıza məxsus musiqi nömrələri, aşıq havaları, kompozisiyalar səsləndirilib, yallı və digər rəqs nümunələri ifa olunub, xalq oyunları göstərilib.

Ardı 5-ci səhifədə







Pedaqoji fakültənin tələbələri isə Qərbi Azərbaycanda məşhur olan idman oyunlarını nümayiş etdiriblər.

Naxçıvan Dövlət Universitetinin Texnologiya Mərkəzi tərəfindən təşkil olunan Qərbi Azərbaycan mətbəxinə məxsus kulinariya sərgisi də festival-konqres iştirakçılarının böyük marağını cəlb edib. Sərgiyə 60-dan çox milli yemək, 44 çeşiddə meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitki, 94 növdə mürəbbə, 12 adda bitki çayı, 13 növdə şirniyyat, 20-dən çox adda xoşab və meyvə şirəsi çıxarılıb.

Festival iştirakçıları "Azer-Gold" QSC-nin stendinə baxıblar. Stenddə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100, Heydər Əliyev Fondunun yaranmasının 20 illiyinə, eləcə də milli ornamentlərimizi əks etdirən qızıl və gümüş sikkələr nümayiş etdirilib.

Festival çərçivəsində Naxçıvan Muxtar Respublikasının rayon icra hakimiyyətləri və digər qurumlar tərəfindən Batabatda Qərbi Azərbaycanın 11 mahalının əlamətlərini özündə əks etdirən çadırlar da qurulub. Əlahiddə Ümumqoşun Ordu Dərələyəz, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Qırxbulaq, Naxçıvan Dövlət Universiteti Vedibasar, Naxçıvan Şəhər İcra Hakimiyyəti İrəvan, Şərur Rayon İcra Hakimiyyəti Şörəyel, Babək Rayon İcra Hakimiyyəti Göyçə, Ordubad Rayon İcra Hakimiyyəti Zəngəzur, Culfa Rayon İcra Hakimiyyəti Zəngibasar, Kəngərli Rayon İcra Hakimiyyəti Kərbibasar, Şahbuz Rayon İcra Hakimiyyəti Dilican və Sədərək Rayon İcra Hakimiyyəti Sərdarabad mahalına aid çadırlar təşkil ediblər. Çadırların hər birində təmsil etdiyi mahala məxsus adət-ənənələr, milli geyim, mətbəx, dekorativ-tətbiqi sənət, məişət əşyaları, quramalar, xalçalar, keçəçilik sənəti, bədii tikmə nümunələri, musiqi alətləri, suvenirlər, Qərbi Azərbaycanın tarixi abidələrinin maketlərindən ibarət sərgilər açılıb, xalq oyunları, aşıq mahnıları, rəqslər və digər nümunələr təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin çadırında festival iştirakçıları üçün səhiyyə xidmətləri təşkil olunub, Naxçıvan Muxtar Respublikası Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri müvafiq təhlükəsizlik tədbirləri görüblər.

# Qərbi Azərbaycanla bağlı yeni kitab və jurnal təqdim edilib





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə Naxçıvanda növbəti dəfə "Qərbi Azərbaycana qayıdış" adlı festival-konqres keçirilir. Festival-konqres çərçivəsində tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılması məqsədilə çap edilmiş dəyərli elmi əsərlərin təqdimatı olub.

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın "XX əsrdə Dərələyəzdə Urbisid və Etnosid Aktları" kitabının və "Ulduz" jurnalının "Qərbi Azərbaycan" xüsusi buraxılışının təqdimatı keçirilib.

Təqdimat mərasimini giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev açaraq qeyd edib ki, bu gün simvolik olaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresini keçiririk. İki ildir ki, təşkil etdiyimiz konqresin budəfəki açılışına Mahirə Hüseynovanın kitab təqdimatı ilə başlayırıq.

Rektor bildirib ki, Qərbi Azərbaycan mövzusu bu gün ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan tərəfindən ziyalılar qarşısında əsas vəzifə kimi qoyulub. Ali Baş Komandanımızın tapşırığı ilə Qarabağın işğaldan azad olunmasını, Qarabağa qayıdışı bizim müzəffər Ordumuz icra edibsə, Qərbi Azərbaycana qayıdışı da alimlər ordusu, yəni bizlər qələmlə, sözlə, fikirlə, tarixlə, ədəbiyyatla təmin etməliyik. Çox məntiqi, çox ideal, ədalətli və sülhə çağırışı olan bir konsepsiyanın müddəasıdır ki, biz bu işi, tarixi ədaləti elmi tədqiqatların, reallığın, bir sözlə, gerçəkliyin ixtiyarına buraxaq. Bunu beynəlxalq ictimaiyyətə çatdıraq ki, alimləri, tədqiqatçıları, cəmiyyətimizi Qərbi Azərbaycan kökənli insanları bu işə səfərbər etməklə, heç bir əraziyə iddia etmədən, heç bir mədəni sərvətə iddia etmədən öz ədalətli tələbimizi gerçəkləşdirə bilək. Bunun üçün də biz bu mövzu ətrafında birləşib özümüzü, ictimaiyyəti, eləcə də bütün dünyanı buna inandırmağa çalışmalıyıq. Və bu sahədə də yaxşı haldır ki, 30 il ərzində Qərbi Azərbaycan əsilli alimlərimizin bir hissəsi, hətta Qərbi Azərbaycandan olmayanlar belə Qərbi Azərbaycan mövzusunu həmişə tədqiqatlarında saxlayıblar. Təsadüfi deyil ki, ötən dövrlərdə orada keçən proseslərin, o cümlədən deportasiyaların, soyqırımların, repressiyaların öyrənilməsinə həsr olunmuş müxtəlif məqalələr, nəşrlər işıq üzü görüb. Necə ki bizim xalq Qarabağı heç vaxt unutmadı və İkinci Qarabağ müharibəsi bunu təsdiq etdi. Azərbaycan xalqının, bu millətin tarixi yaddaşı onun Vətənə olan məhəbbəti, sevgisitək əbədidir. Sadəcə, mühit, zaman, lider kimi məsələlər bunu həll edir. Bu gün isə biz çox xoşbəxtik ki, Azərbaycan xalqının uzaqgörən lideri var. Zamanı, vəziyyəti düzgün qiymətləndirən bir sərkərdəsi var və liderimiz Azərbaycan xalqını səfərbər edərək qayıdışımızı, zəfərimizi təmin edib.

Elbrus İsayev diqqətə çatdırıb ki, biz bu festivalı keçirməklə təkcə Azərbaycan ictimaiyyətinə yox, eləcə də beynəlxalq ictimaiyyətə mesaj vermiş oluruq. Bu gün işığına toplaşdığımız kitab təqdimatının özü də ciddi bir mesajdır.

Çıxışçılardan filologiya üzrə fəlsəfə doktoru Arifə Zeynalova, filologiya üzrə fəlsəfə doktoru Qənirə Əsgərova, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıl, ADPU Filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Həsənova, ADPU Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Leyla Cəlalova təqdimatı keçirilən kitab və jurnal haqqında öz fikirlərini bildiriblər.

Sonda müəllif Mahirə Hüseynova çıxış edənlərə öz təşəkkürünü bildirib.

# Naxçıvanda müasir "TIER III" standartlarına uyğun Data Mərkəzi inşa ediləcək

### *Bu mərkəz muxtar respublikada rəqəmsallaşmanın inkişafına zəmin yaradacaq*



Bu gün rəqəmsal transformasiya sahəsində məlumatlar bütün dünyada kritik aktivə çevrilməklə yanaşı, onların idarə edilməsi, istifadəsi və qorunmasını müəyyən edən proseslər, standartlar, həmçinin saxlanılması, emalı və təhlükəsizliyi, habelə uyğunluğunun təmin edilməsi aktual məsələlərdir. Bu məqsədlə ölkəmizdə də rəqəmsal texnologiyaların geniş tətbiqi, infrastrukturun təkmilləşdirilməsi, o cümlədən data mərkəzlərin yaradılması, məlumatların emalı və bu istiqamət üzrə kadr hazırlığı diqqət mərkəzində saxlanılır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da bu sahədə mühüm addımların atılması nəzərdə tutulub. "Şərq qapısı" qəzetinin Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müraciətinə əsasən bildirilib ki, hazırda nazirlik tərəfindən muxtar respublikada data idarəçiliyi istiqamətində bir sıra tədbirlər həyata keçirilir.

Nazirlikdən verilən məlumatda qeyd olunur ki, Dövlət Proqramına uyğun olaraq Data Mərkəzinin inşa edilməsi muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda rəqəmsal inkişafın şərtləndirilməsinə zəmin yaradacaq ki, bu da geosiyasi regionda yerləşən muxtar respublikada olduqca xüsusi əhəmiyyətə malikdir. Artıq mərkəzin layihələndirilməsi ilə bağlı iş planı hazırlanmış, işçi qrupu yaradılmış və bu istiqamətdə görüləcək işlər müəyyənləşdirilmişdir. Həmçinin mərkəzin konseptual layihəsi hazırlanmış və şəhərsalma tələblərinə uyğunluğunun müəyyənləşdirilməsi üçün aid qurumla razılaşdırılmışdır. Bununla yanaşı, mərkəzin texnoloji infrastrukturu ilə bağlı nazirliyin mühəndisləri tərəfindən təhlillər aparılmış, eləcə də tender sənədləri hazırlanmışdır. Layihələndirməyə dair təqdim olunan siyahılara uyğun olaraq təkliflər toplanılmış və Dövlət satınalmalarının vahid internet portalında *(www.etender.gov.az)* satınalma elanı yerləşdirilmiş və layihələndirmə ilə bağlı tenderin keçirilməsi üçün zəruri tədbirlər görülmüşdür. Tikinti layihəsinin şəhərsalma sənədlərinin, o cümlədən müfəssəl planın müəyyənləşdirdiyi tələblərə uyğun olduğunun müəyyən edilməsi üçün layihənin aid qurumlara göndərilməsi və ekspertizadan keçirilməsi də həyata keçirilməkdədir.

Qeyd edək ki, muxtar respublikada yeni inşa ediləcək Data Mərkəz "TIER III" standartına uyğun qurulacaq və burada bütün infrastrukturun rezervlənməsi nəzərdə tutulur. Bu da, öz növbəsində, texniki qüsur olduqca belə fasiləsiz şəkildə fəaliyyət göstərməyə imkan verərək xidmət keyfiyyətinin 99,982 faiz səviyyəsində olması və ya il ərzində ümumi boşdayanma ehtimalı müddətinin 1,6 saatdan artıq olmaması deməkdir. Eyni zamanda bu, enerjidən istifadənin optimallaşdırılması, enerji mənbələrinin idarə edilməsi və enerji paylaşdırıcı avadanlıqlar sayəsində ətraf mühitə tam zərərsiz infrastrukturdur.

Öyrəndik ki, "TIER III" səviyyəli data mərkəzin əsas xüsusiyyətlərindən biri onun komponentlərinə eyni vaxtda texniki xidmət göstərə bilmək imkanına malik olmasıdır. Yəni generator və ya UPS kimi vahid komponentlər data mərkəzdə server rəflərinin qoşulmuş enerji yükünə təsir etmədən texniki xidmət göstərilə bilər. Belə data mərkəzlərdə enerji mənbələri və soyutma üçün çoxsaylı rabitə kanalları və ikili enerji mənbələri olan paylama yolları mövcuddur ki, bir yol sıradan çıxdıqda digəri müvəqqəti onu əvəz edə bilir və sistemlərin işlək vəziyyətdə qalması təmin edilir. Bundan əlavə, "TIER III" səviyyəli data mərkəzlər gözlənilməyən boşdayanma vaxtı artıqlığın və ehtiyat nüsxələrinin çıxarılmasının daha yaxşı idarə edilməsinə imkan verir. Eyni vaxtda texniki xidmət göstərilə bilən mexaniki və elektrik sistemləri o komponent sıradan çıxdıqda sistemdə 1 ehtiyat nüsxənin mövcud olmasını təyin edən N+1 ehtiyat nüsxəsinə malikdir. Data Mərkəzinin texniki imkanlarına nəzər saldıqda isə kritik infrastruktur sistemlərini xüsusi rejimdə rezervləməklə, hətta avadanlığa texniki baxış və ya təmir zamanı belə fasiləsiz fəaliyyət göstərməsi rəqəmsal xidmətlərin dayanıqlılığını təmin edir.

Məlumatda bu da qeyd olunur ki, mərkəzin səviyyə əsaslı təsnifatı da rəqəmsal iştirakçılar üçün çox faydalıdır. Belə ki, Data Mərkəzin səviyyə əsasında təsnifatı mərkəzin obyektinin həcmini və imkanını müəyyən etməkdə və məlumat verməkdə provayderlərə kömək edir. Sahə standartı yeni obyektlərin inkişaf strategiyalarının uyğunlaşdırılmasına da kömək edir. Ümumilikdə isə "TIER III" beynəlxalq uyğunluq sertifikatı ilə təmin olunması nəzərdə tutulan Data Mərkəz öz imkanları və irihəcmli verilənlərin toplanılması və emalına, ümumilikdə, muxtar respublikada rəqəmsallaşmaya öz töhfəsini verəcəkdir ki, bu da Naxçıvan Muxtar Respublikasının ümumi inkişafında əvəzsiz rola malikdir.

✍ **Səbuhi HƏSƏNOV**

# Qərbi Azərbaycana qayıdış yolu

## Batabat yaylağı



Qarabağda 30 illik erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsi sübut etdi ki, tarix nə qədər amansızlıqlarla dolu olsa da, sonda uca ədalətin hökmü qaçınılmazdır və bu hökm Zəfər çaldığında insanların tək arzusu bir daha kimsənin zülmə məruz qalmaması və hər yerdə hər kəsin sülh içində yaşamasıdır. Ona görə də Cənubi Qafqazda yeni reallıqların yarandığı, Azərbaycanın söz sahibi tək ölkə olduğu və Ermənistanla sülh müqaviləsinə addım-addım yanaşıldığı bir dövrdə bu ölkədən sıxışdırılaraq çıxarılmış soydaşlarımızın öz doğma torpaqlarına qayıtmaları üçün atılan bütün addımların böyük əhəmiyyəti vardır. Məqsəd son yüz ildə indiki Ermənistan ərazisində dəfələrlə zülmə məruz qalmış qərbi azərbaycanlı əhalinin pozulmuş hüquqlarını bərpa etmək, beynəlxalq ictimaiyyət qarşısında bu problemin də hüquqi həlli məsələsini qaldırmaqdır. Buna görə də Qərbi Azərbaycanın öyrənilməsi, buradakı tarixi yurd yerlərinin, min illər boyu burada yaşamış soydaşlarımızın mədəni mirasının, adət-ənənələrinin, milli mətbəx nümunələrimizin, memarlıq abidələrimizin tədqiq olunması və öz həqiqi kimliyi ilə tanıdılması məsələsi gündəmdə dayanmaqdadır. Bütün bu aspektlərdən yanaşdıqda Naxçıvanın dilbər guşəsi, Zəngəzur və Dərələyəzin bir addımlığındakı Batabat yaylağında keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresini tarixi hadisə və dünyaya açıq mesaj kimi dəyərləndirmək mümkündür.

Beynəlxalq hüquq hər bir insana doğulduğu torpaqlarda yaşamaq, işləyib fəaliyyət göstərmək və burada ömrünü sona qədər sürmək haqqı verir. Belə ki, 1948-ci ildə qəbul edilmiş İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinin 2-ci bəndində hər bir insanın öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ olduğu təsbit edilmişdir. 2020-ci ilin 10 noyabrında müzəffər Azərbaycan Ordusu erməni işğalına son qoyub hüquqları pozulmuş həmyerlilərimizin haqlarını bərpa etdikdən sonra Ali Baş Komandan cənab İlham Əliyev Qərbi Azərbaycandan qaçqın salınmış yüz minlərlə soydaşımızın da hüquqlarının bərpası üçün beynəlxalq hüquqa əsaslanan hər cür tədbirlər görəcəyini bütün platformalarda dilə gətirmiş, işğalçı Ermənistanın buna görə daşıdığı məsuliyyəti ön plana çəkmişdir. Bu mənada, 21-22 iyun 2024-cü il tarixdə Batabat yaylağında keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresinin həm siyasi, həm elmi, həm də tarixi-mədəni əhəmiyyətini qeyd etmək olar.



Qərbi Azərbaycanın tarixi Azərbaycan torpaqları olduğunun dünyanın, eləcə də məğlub Ermənistanın diqqətinə çatdırılması hazırda bizim üçün əhəmiyyətli olan regional və qlobal siyasi təmaslardakı görüşlərin, dialoq və mesajların əsas məğzini təşkil edir. Qarabağın Azərbaycan torpağı olduğunu artıq çoxdan etiraf etmiş, radikal müxalifət də daxil olmaqla bütün erməni cəmiyyəti sərhədlərin delimitasiyası məsələsində Azərbaycana qaytarılmalı olan kəndləri də ön şərt olmadan boşaltmaqla bu məğlubiyyətin onlara bir dərs olduğunu da artıq çoxdan içlərinə udub, həzm etmişdir. Ancaq bununla yanaşı, dünyadakı erməni diasporunun ağzı ilə nəfəs alıb, onun nazı ilə oynayan Fransa kimi kolonialist dövlətlərə qarşı qlobal siyasi alətlərdən istifadə edilərək mübarizə aparılması məsələsində daha çox milli səsin ucaldılması, xüsusən də Ermənistanda soyqırımına, vandalizmə və urbisidə məruz qalmış azərbaycanlı izlərinin yenidən həyata qaytarılması baxımından belə elmi-mədəni tədbirlər olduqca əhəmiyyətlidir.





“Qərbi Azərbaycana qayıdış” festival-konqresinə elmi ictimaiyyətin böyük marağı vardır. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə baş tutan tədbirin gedişində iştirak edən elm adamları, ölkəmizin ali təhsil müəssisələri və araşdırma mərkəzlərinin rəhbərləri, qardaş Türkiyənin elm adamları və Naxçıvanda fəaliyyət göstərən elm-təhsil müəssisələrinin əməkdaşları Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, təbiəti, turizm ehtiyatları, milli mətbəxi, geyimləri, el adətləri və digər sahələri əhatə edən 300-dən artıq elmi məruzə, çıxışlar təqdim etmiş, əslən Qərbi Azərbaycandan olan muxtar respublika sakinləri festivalda iştirak etmişlər. Festival-konqres ərəfəsində Qərbi Azərbaycana həsr olunmuş kitabların təqdimatları elmi ictimaiyyətdə bu istiqamətdə aparılan araşdırmalar üzrə yeni bir oyanış ruhu yaratmış, yeni fikirlər doğurmuşdur.

Festivalın tarixi-mədəni əhəmiyyəti, hər şeydən əvvəl, Cənubi Qafqazda tarixi reallıqların olduğu kimi ifadə olunması, indiki Ermənistan ərazisində qalmış 11 Azərbaycan mahalının tarixi-etnoqrafik mənzərəsini tanıtmaqdan ibarətdir. Zəngəzurdan Şörəyelə, Göyçədən Sərdarabada qədər bütün tarixi torpaqlarımızda mövcud olmuş mədəni irsimizin öyrənilməsi, bu irsi yaşadanların təqdimatlarında onların yenidən canlandırılması baxımından festival-konqres tarixdə öz yerini tutacaq. Batabatda qurulmuş çadırlar tarixi vilayətlərimizin sakinlərinin virtual evi kimi öz sakinlərini salamlamış, buradakı milli musiqili bədii təqdimatlar iştirakçılarda unudulmaz təəssüratlar yaratmışdır. Əslən Qərbi Azərbaycandan olan iki gəncin rəsmi toy ziyafətinin də keçirildiyi bu möhtəşəm elm və mədəniyyət tədbiri harada yaşamalarından asılı olmayaraq, azərbaycanlıların öz ata-baba yurdlarına bağlı olmalarını dünyaya sübut edən ən yaddaqalan bir el bayramı kimi də tarixə düşmüşdür. Hazırkı internet dövründə festival-konqresə böyük maraq göstərən media ordusu da hazırlıq mərhələsindən başlayaraq bütün tədbirləri geniş şəkildə işıqlandıraraq yüz illər boyu elektron yaddaşlarda yaşayacaq tarixi də sənədləşdirdilər. Və bütün bunların hamısı Naxçıvanın turizm cənnəti, həm də bir zamanlar, sovet dövründə mühüm nəqliyyat-logistika marşrutu olmuş Naxçıvan-Gorus-Laçın-Yevlax avtomobil yolu üzərindəki Batabat da olmaqla ölkəmizin bütün dünyaya sülh, turizm və mədəniyyət yolu ilə inteqrasiyaya maraqlı olduğunu, Qərbi Azərbaycana da bir gün məhz bu yolla qayıdacağımızın güclü siqnal kimi Biçənək aşırımının o biri üzünə çatdırıldı.



Xalqımızın Ümummilli Lideri Heydər Əliyev çıxışlarının birində soydaşlarımızın bir gün mütləq öz torpaqlarına qayıdacağına əminliyini ifadə edərək ***“Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir”***, – demişdir. Ulu Öndərin layiqli davamçısı Prezident cənab İlham Əliyev isə böyük Qələbəmizdən sonra yaranan ədalətli tarixi reallıqların nəticəsində artıq soydaşlarımızın Qərbi Azərbaycana Böyük Qayıdış hədəfini qarşıya qoymuşdur. İndi bu hədəfin bir addımlığında, Batabat yaylağındayıq.

**Əli CABBAROV**



# Yenə gördüm gördüyümüz dağları




*Nəfəsimdən əriyirdi dağ qarı.*
*Yenə elə durnaların qatarı,*
*Yenə elə dərə düzən dünyadı,*
*Dünya gözəl, dünya gözəl dünyadı.*
*(Məmməd Araz)*

Bu gözəl dünyanı müharibələr yolu ilə viran qoymaq istəyənlərin bir qrupu da mənfur ermənilərdir ki, Azərbaycanın dilbər guşəsi Qarabağımızı otuz il ərzində əsirlikdə saxladılar, sökdülər, daşıdılar, viran etdilər. Uca Tanrının mərhəməti, dünyanı heyrətə gətirən Ali Baş Komandanımız, ölkə Prezidenti cənab İlham Heydər oğlunun cəsarəti, iradəsi, qətiyyəti, məharəti, sözü ilə işinin vəhdəti, yenilməz Azərbaycan Ordusunun qeyrəti ilə 44 günlük Vətən müharibəsində Qarabağımız düşmən tapdağından azad olundu. O cümlədən mənim doğulduğum, lakin orada böyüyə bilmədiyim, ulularımın ulu məskəni Dədə Şəmşirin, Sücaətin, Qəmkeşin, Ənvər Rzanın, Bəhmən Vətənoğlunun, onlarca alimin, saz-söz ustadlarının, mənim və ata-babalarımın, ana-nənələrimizin yurd yeri olan Kəlbəcər də qayıtdı.

Artıq o qoca diyarı gözlərimlə görmək, o torpağı diz çöküb öpmək arzusu reallaşmışdır. 2021-ci ildə çətinliklə olsa da, istəyimə çatdım. Qısamüddətli bir səfər taleyimdə, ürəyimdə silinməz izlər buraxdı... Səkkiz yaşımda məcburən tərk etdiyim o səsli-küylü, abad, səliqəli kəndi indi sakit, səssiz-səmirsiz, viran gördüm. Kəndimizdən, evimizdən heç bir əsər-əlamət qalmamışdır. Hər nə varsa, əksinə, dəyişmişdir. Dəyişməyən yalnız vüqarlı dağların ətəyində məğrur dayanan ana Vətən idi. Belə bir deyim var, harada doğulursansa, ora sənin vətənindir. Vətənini, yurdunu bu vəziyyətdə görmək, təbii ki, mənim üçün ağır oldu. Doğulduğum Susuzluq kəndinin şır-şır bulağının suyundan içib, torpağını öpüb qayıtdım Naxçıvana. O vaxtdan bu günlərə kimi yenə ürəyimdə, qəlbimdə, ruhumda Kəlbəcər həsrəti ilə yaşayır, bir də o yerlərə dönmək həvəsim gündən-günə artır, aşıb-daşırdı. Çünki televiziyada, radioda, sosial şəbəkələrdə Qarabağda sürətlə gedən quruculuq, abadlıq işlərini görür, eşidir, fərəhlənir, sevinir, sevincimdən kövrəlirəm.

Kövrəlməyimin bir səbəbi də mərhum atamın o yerləri bir daha görə bilməməyi idi. O gün axır ki, çatdı. Qərarım reallığa çevrildi. Bir müddət əvvəl Ordubaddan Gəncəyə yollandıq... Doğma torpağı ikinci dəfə ziyarətə getdik. Yolboyu abadlaşan kəndləri, yeni çəkilən yolları, tikinti-quruculuq işlərini, sosial obyektləri gördükcə adamın ürəyi Murov dağına, Keytiyə, Dəlidağa dönürdü. Qısa müddət içərisində Murov dağının altından çəkilmiş 12 kilometrlik tunel, demək olar ki, hazır vəziyyətdə idi. 3260 metr hündürlükdə yerləşən Ömər aşırımı bizi öz doğma kəndimizə – Susuzluğa apardı. Ailə üzvlərimizlə, doğmalarımızla doğma kəndimizə çatdıq.

Kəndin mənzərəsi adamı valeh edirdi. Sevinc göz yaşları bizi boğurdu. Allahımıza çox şükürlər olsun, dedik. Mərhum atamın min bir əzabla dağları yarıb Xudaverdi bulağından çəkdiyi çeşmənin sızıntı axışı 30 ildə böyük bir yarğan əmələ gətirmişdi. Biz həmin sudan doldurub içmək istəyəndə anam dedi: – Yox, bala, siz bu sudan əyilib içməlisiniz, həm diziniz, həm əlləriniz bu müqəddəs torpağa, dodaqlarınız isə dağların şəfalı suyuna dəysin. O an fikirləşdim ki, bu, torpağa səcdə qılmaq anlamındadır. Hər birimiz anam dediyi kimi etdik... Onu da qeyd edim ki, kəndin evlərində barmaqla sayıla biləcək qədər sınıq daşlar qalmışdı...

Buna baxmayaraq, apardığımız nemətlərdən 30 ildən sonra həyatimizdə süfrə açdıq. Artıq günortadan keçmişdi. Sulu dərənin şırıltısı bizə Xanın səsini xatırladır, ətrafı seyr etdikcə Murovun şiş qayaları, Keytinin, Dəlidağın vüqarla dayandığını, sanki düşmənə meydan oxuduğunu bizlərə bəyan edirdi. Biz də inanırıq və hətta əminik ki, bütün kəlbəcərlilər abad Kəlbəcərə qayıdacaq, sülh və əmin-amanlıq içində yaşayacaqlar.

Doğma kəndimizi, erməni vandallarının viran qoyduğu evimizi göz yaşları içərisində buraxıb geri döndüm. Necə deyərlər, ayağım gedir, ürəyim isə orada – Susuzluqda qalırdı. Çox keçmədi ki, Kəlbəcərin "Turşsu"yunda, "İstisu"yunda olduq. Min bir dərdin dərmanı olan təbii müalicəvi sulardan içdikcə, sanki yenidən dünyaya gəlirsən. Bir yandan çayın şırıltısı, bir yandan meşələrin səsi, quşların səsi, təbii suların yerdən qaynayaraq çıxması o qədər doğma gəlirdi ki, elə bil öz doğma övladlarını qarşılamaq üçün hazırlaşmışdılar.

Ağır da olsa, bir daha Kəlbəcərdə əbədi məskunlaşmaq arzusu ilə geri qayıtmalı olduq. Qayıdarkən Kəlbəcər-Ağdərə yolu ilə gəlməyi qərara aldıq.Yolboyu abadlıq və quruculuq işlərini gördükcə qəlbimiz fərəh hissi ilə dolurdu. İşğaldan azad olunmuş bu torpaqda bərpa işlərini, şümşad yolları, sosial obyektləri, yenicə istifadəyə verilmiş seçki dairələrini, daha nələrinələri gördükcə fikirləşirdim ki, onlarca şair, yazıçı-jurnalist, müəllim bu barədə yüzlərcə kitab yazsa, yenə də azlıq edər və qəlbimdən keçənləri dilimə gətirdim: Təkcə Azərbaycan adlı bir məmləkətə deyil, bütün dünya xalqlarına, dünya dövlətlərinə sülh, barış arzulayan, sözü ilə əməli arasında fərq olmayan, yalnız Azərbaycan tarixinə yox, dünya tarixlərinə adını, imzasını silinməz, pozulmaz hərflərlə həkk etdirən, XXI əsrin yenilməz sərkərdəsi, "dəmir yumruq" sahibi, Azərbaycan Prezidenti cənab İlham Əliyevə eşq olsun! Ulu Tanrı onu qorusun! Tək olan Allah onu Azərbaycana, Türk dünyasına, mütərəqqi xalqlara çox görməsin!

*QARABAĞ AZƏRBAYCANDIR!*

**Adim YUSİBOV**
***Ordubad rayon Əlhi kənd tam orta məktəbinin direktoru***

# Salam, Zəngəzur!



Türkün qapısı Naxçıvandan sənə salam, ey ulu yurd yerimiz, əcdadlarımızın məskəni, Zəngəzur!

Səsləndik, bu ulu torpağımızdan, o ulu torpağımıza. Duydu səsimizi tarixin canlı şahidi dağlar, qayalar, məscidlər, alban kilsələri, hiss etdi Vətən eşqi ilə yanan qəlbimizin acısını, həsrətin sonunun ayaq səslərini babalarımızın mənfur düşmənlərimiz tərəfindən viran olunmuş məzar daşları...

Səsinə səs verdi, qədim Oğuz yurdu türk yurdunun... Vətəni vətənə bağlayan müqəddəs torpaqlar dil açıb "bütöv Azərbaycan" sədaları səsləndirdi Zəngəzurda... Biz gəlirik, əzəli, əbədi yurd yerlərimiz... Daha güclü, daha möhkəm addımlarla geri qayıdırıq.

Mən I Qarabağ müharibəsi qazisi qızı olaraq Ümummilli Lider Heydər Əliyevin söylədiyi dəyərli fikirlərdən birini uşaqlıqdan bəri xatırlayıram: ***"Mən inanıram və mən tam inanıram ki, hər şey ədalət naminə dəyişəcəkdir bizim bölgədə. Azərbaycan xalqının əzabəziyyəti onun xeyrinə dəyişəcək. Və mütləq-mütləq siz gələcəkdə hələ gedib öz Göyçə torpağınızı da görəcəksiniz. Öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm".***

Bəli, biz inanırıq, tam inanırıq ki, biz bütün doğma torpaqlarımıza qayıdacağıq! Biz bunun üçün hər bir bacarığımızı təqdim etməyə, bütün gücümüzü birləşdirməyə hazırıq!

"Qərbi Azərbaycana qayıdış" festival-konqresində dünya azərbaycanlıları vahid mərkəzdən çıxış etdi və dünyaya ədalət işığı yayıb düşmənin gözlərini qamaşdırdı. Biz bundan sonra da bu istiqamətdə ciddi irəliləyişlərlə meydanda olmağa hazırıq! İnanırıq ki, budəfəki "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin də sədaları ulu yurd yerlərimizin hər birində duyulacaq, əcdadlarımızın ruhunu şad edəcəkdir!

**Təbrizə BAĞIROVA**
***"Qərbi Azərbaycana qayıdış" festival-konqresinin təşkilat komitəsinin üzvü, Naxçıvan Dövlət Universitetinin əməkdaşı***

# Deyəsən, Fransa "sezarlar"ın taleyini Azərbaycana tapşırıb…



✍ **Səbuhi HƏSƏNOV**

Bu həftə Fransa və Ermənistan arasında "Sezar" (CAESAR) haubitsalarının İrəvana tədarükü ilə bağlı müqavilə imzalandı. Yayılan məlumatlara görə, Ermənistan Fransadan 36 ədəd "Sezar" özüyeriyən artilleriya sistemi alıb və bu silahlar yaxın 15 ay ərzində alıcısına çatdırılmalıdır.

Fransa və Ermənistan rəsmiləri təkidlə alınan silahların müdafiə xarakterli olduğunu bildirirlər. Amma silahların modifikasiyasına gəldikdə bunun belə olmadığı gün kimi aydındır. Təbii ki, Azərbaycan tərəfi dərhal ən yüksək səviyyələrdə bu silahların Ermənistana verilməsinə öz narazılığını bildirərək bunun belə bir həssas zamanda – iki ölkə arasında sülh prosesinə hazırlıqlara mənfi təsir göstərəcəyini, ortaya çıxan nəticələrə görə həm Ermənistan, həm də Fransa siyasi-hərbi rəhbərliyinin məsuliyyət daşıyacağını bildirdi. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bununla bağlı açıqlamasını hər iki tərəfə xəbərdarlıq kimi də qiymətləndirmək olar. Belə ki, Müdafiə Nazirliyi açıq şəkildə bildirdi ki, hazırkı hərbi sövdələşmə ilə Ermənistanın öldürücü silahlarla təchiz edilməsi Fransa rəhbərliyinin riyakarlığının növbəti təzahürüdür.

Cənubi Qafqaz regionunda militarizasiya və geosiyasi intriqa siyasəti yürüdən Makron rejimi Ermənistan ilə Azərbaycan arasında normallaşmaya və regionda davamlı sülhün təmin olunmasına mane olur. Bu kimi destruktiv və qərəzli siyasətinə görə normallaşma və regional proseslərdən kənarda qalan Fransanın indiki rəhbərliyi bunu Azərbaycana bağışlaya bilmir və ona görə də pozucu siyasətini davam etdirir. Açıqlamada aydın şəkildə deyilir ki, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz və işğal törətmiş dövlətdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa tərəfindən qanlı hərbi təcavüz törətmək təcrübəsi olan Ermənistanın yenidən silahlandırılması və Ermənistan rəhbərliyinin revanşizm siyasətini dəstəkləməsi siyasi məsuliyyətsizlik olmaqla bərabər, həm də yeni müharibəyə aparan yoldur. Və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaqdır.

Maraqlı burasıdır ki, Ermənistan guya bu addımı özünün suveren hüququnun olması və ölkəsinin təhlükəsizliyinin təmin olunması məqsədilə etdiyini bildirir. Halbuki iyunun 19-da Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı bəyanatında Ermənistanın bu addımının nəyə görə qeyri-legitim olmasını detallarına qədər izah etdi: 30 il ərzində məhz beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan, bu gün dəfələrlə istinad etdiyi Alma-Ata bəyannaməsinə zidd olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təcavüz törədən, qonşularına qarşı ərazi iddialarını davam etdirən, öz təcavüzkar əməllərini məhz Azərbaycan tərəfindən atılmış addımlar nəticəsində dayandıran Ermənistanın sülhpərvər ölkə imici yaratması siyasi manipulyasiyadır. 1991-ci ilin sərhədləri və Alma-Ata bəyannaməsi əsasında ərazi bütövlüyünə istinad edən Ermənistan tərəfinin son 30 ildən artıq müddətdə nəyə görə bu razılıqlara əməl etmədiyinə, sovet xəritələrində əksini tapmış sərhədləri qəbul etməkdən imtina etdiyinə, Azərbaycan ərazilərini işğal etdiyinə izahat verməsi daha yaxşı olardı. Ardınca Ermənistanın nə qədər ki gec deyil, bu cür addımlardan imtina etməsi məsləhət görülür. Sitat: ***"Guya sülhü dəstəkləyən və Ermənistanın məhz müdafiə qabiliyyətini artırmağa yönəlmiş bəyanatlarına zidd olaraq Ermənistanın ölümcül hücum silahları ilə təchiz edilməsində yarışan Fransa kimi ölkələrin Ermənistanın yeni gərginlik və təhdid mənbəyinə çevrilməsinə xidmət etdiyi bəllidir. Bu siyasətin Ermənistanın növbəti mümkün təcavüzünə töhfə verdiyini nəzərə alaraq nə qədər ki gec deyil, bu addımlardan çəkinilməsi əhəmiyyət kəsb edir".***

Bəli, 44 günlük Qarabağ savaşından sonra Fransa Azərbaycanın Cənubi Qafqazda (həm də Avrasiyada) yaratdığı reallığı olmayan nüfuzuna sığışdıra bilmir. Müharibədən sonra Azərbaycan Prezidentinin qəbuluna çağırılmamış qonaqlartək təşrif buyuran və suyu süzülə-süzülə çıxan ATƏT-in Minsk qrupunun həmsədrlərinə dövlət başçısının bütün dünyanın gözü qarşısında dediyi sözlər elə Fransanın da nüfuzunu yerlə bir etmişdi. 30 il ərzində guya tərəflər arasında sülh yaratmağa çalışan, indi isə bütün proseslərdən uzaqlaşdırılan bu ermənipərəst ölkə hər addımda Azərbaycana qarşı əks addım atmağa çalışsa da, istədiyinə çata bilmir. Əksinə, hər dəfəsində də qanlı keçmişi və müstəmləkəçilik siyasətini üzünə şapalaq tək vuran Azərbaycanla üz-üzə qalır. Bu dəfə isə Makron Fransası hücum xarakterli "sezarlar"la Cənubi Qafqazda nəyi isə dəyişəcəyinə ümid edir. Bir zamanlar Avropa intibahının lokomotivi olan, indi isə cahilliyə və nihilizmə doğru yuvarlanan Fransa özünün makronizm siyasətinin nəticəsində hələ bunu dərk eləmir ki, Azərbaycan Cənubi Qafqazda sıradan bir ölkə deyil. Bu ölkə hazırda Avrasiya məkanında mühüm geostrateji imkanlara, təsir vasitələrinə malik bir ölkədir. Bu ölkənin atdığı addımlar Avropa və Asiyanın ticari, iqtisadi, siyasi gündəmini müəyyənləşdirir.

Deyəsən, Makronun hərbi məsləhətçiləri II Qarabağ savaşının məlum nəticələrini ya dərindən dərk etməyiblər, ya da prezidentlərinə bunu aydın şəkildə başa sala bilməyiblər. Bir müddət bundan əvvəl Azərbaycan Prezidenti xəbərdarlıq etmişdi ki, əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Belə görünür ki, Ermənistana platonik sevgisi ucbatından Fransa hərbitexnoloji nüfuzunun taleyini də Azərbaycana tapşırıb…

# O çadırdan bu çadıra:

## yollar yenidən birləşir, yarım qalan arzular gerçəkləşir

“Xocalıda 32 il sonra ilk toy məclisi baş tutub”, “Xocalıda yarım qalan arzular gerçəkləşir”. Damarında azərbaycanlı qanı axan hər kəsi sevinc göz yaşlarına qərq edən, qəhərləndirən bu sərlövhə, toy görüntüləri bizi illər öncəyə dartıb apardı. Köhnəlməyən, munis xatirələrimiz yenidən canlandı yaddaşımızda. Xatırlamadığımız nələr qaldı ki... Ölkəmizin müstəqillik yolunda atdığı kövrək addımlar, bu kövrəklikdən sui-istifadə etməyə çalışan vəzifə hərisləri. Eyni anda həm daxili, həm xarici düşmənlərlə apardığımız mübarizə. Min bir zəhmətlə qurub yaratdığımız ev-eşiyimizdən didərgin salınmağımız. 1 milyondan artıq qaçqın və məcburi köçkün. Həmin köçkünlərin yaşadıqları çadırlar. Sonralar onlar üçün ən müasir tələblərə uyğun qurulan şəhərciklər. Ən əsası isə










qaçqın çadırlarından toy çadırlarına uzanan yol...

Bəli, öz elindən sürgün olunmağın, evindən məcbur aralı düşməyin, illərlə qurduğunun bir göz qırpımında dağıdılmasının mahiyyətini yalnız onu yaşayan dərk edər. Həmin acının nə demək olduğunu təkcə o dərindən duya bilər. Bir söz var. Nənə-babalarımızdan tez-tez eşitdiyimiz söz. Deyir, qurban olum elimin daşına, kəsəyinə. Başqa şəhərdə, kənddə nə qədər gözəl şəraitdə yaşasam da, doğulduğum öz ata evinin, ocağının heç vaxt yerini verməz. Məhz 30 illik həsrət, hicran hissi ilə yaşayan keçmiş məcburi köçkünlər də, bu hissləri dərininə kimi yaşadılar. Ən duyğulu anlar isə, heç şübhəsiz, el adətlərinə uyğun qeyd olunan əlamətdar, əziz günlərdə, toylarda, bayramlarda yaşanardı. Ümummilli Liderimiz Heydər Əliyev bütün xoş günlərdə, toylarda, nişanlarda yanlarında olar, bəy-gəlinlə qol qaldırıb oynayar, xeyir-dua verərdi yenicə qurulan ailələrə. Ulu Öndərin hər gəlişi ilə ikiqat bayram sevinci hiss edər, qəribçiliyi unudardı soydaşlarımız, dahi şəxsiyyətin səmimi söhbətlərindən, mehriban münasibətindən yaşamaq-yaratmaq ilhamı alar, gələcəyə ümidləri, inamları artardı. Görkəmli dövlət xadiminin 1998-ci il martın 20-də Mərdəkandakı “Abşeron” sanatoriyasında Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyindəki nitqinin mahiyyətinə isə illər sonra gerçəkliyi yaşamaqla daha dərindən vardıq: ***“Bu gün, bayram günü əmin olduğumu bildirmək istəyirəm ki, biz bu arzumuza mütləq çatacağıq. İşğal edilmiş torpaqlarımızın hamısı azad olunacaq, nəyin bahasına olursa-olsun azad ediləcəkdir. Siz yenidən böyük evlərin, mülklərin, torpaqların sahibi olacaqsınız və xoşbəxt yaşayacaqsınız... Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır”.***

Bəli, dahi şəxsiyyət əmin idi ki, Onun layiqli varisi bu pak, mübarək niyyəti, arzunu nəyin bahasına olursa-olsun mütləq reallığa çevirəcək. Və həmin gündən 22 il sonra övladı, xalqın Lideri İlham Əliyev ata əhdini, vəsiyyətini sarsılmaz siyasi iradəsi sayəsində uğurla yerinə yetirdi. Vətən müharibəsi və ötən bu dörd ilə yaxın müddətdə qazanılan nailiyyətlərdən sonra tamam başqa mənzərə yaranıb artıq. Möhtəşəm Qalib, Bütöv Azərbaycan mənzərəsi. İndi, demək olar ki, hər gün onlarla soydaşımızın öz yurdlarına qayıdış xəbərini eşidirik, görürük. Artıq köçkünlük həyatları başa çatır, qəribçilikdən qurtulur, düz birqərinəlik mənəvi məhrumiyyətlərdən sonra ömürlərinin yeni mərhələsinə qədəm qoyacaqları həqiqəti ilə ürəkləri atlanıb-düşür, gecələri daha nigarançılıqdan deyil, sevincdən yuxu girmir gözlərinə soydaşlarımızın. Bu dönüş, bu qayıdış təkcə elə, evə geri dönüş deyil, mənəvi dəyərlərə, adət-ənənələrə qayıdışdı. Böyük Qayıdış. Bu gün Zəngilanda, Füzulidə, Laçında, Xocalıda salınan yaraşıqlı, baxımlı evlərin əhatəsində möhtəşəm mağarlar qurulur: ailələrin sağlam bünövrəsinin qoyulduğu toy mağarları. İllər öncə mənfurların fitnəsi ilə toyu qara gələnlər məğrur Azərbaycan əsgərinin şücaəti sayəsində ağ günə çıxıb, yenidən masa arxasına əyləşib yarım qalmış izdivac mərasimlərini yenidən keçirirlər. Və beləcə, bir qərinədən sonra yollar eyni yerdə, torpaqda yenidən birləşir, nakam arzular gerçəkləşir. Bir vaxt hayların natəmiz ayaqlarının dəydiyi Şuşa torpağı Ali Baş Komandanın siyasi iradəsi, Vətən övladlarının qətiyyəti sayəsində təmizlənib, paklanıb artıq. Ermənі baş nazirinin sərxoş halda yallı getdiyi Cıdır düzündə onu hərbi-siyasi məğlubiyyətə uğradan Qalib Lider öz həmvətənləri ilə birgə adət-ənənəyə uyğun qol-qaldırıb rəqs edir, festivallar, bayramlar keçirir...

Xalqımızın əziz bayramı Novruzda Şuşada, Füzulidə, Laçında, Zəngilanda tonqallar qalanır, elimizin adət-ənənələri icra olunur, naz-nemətlə bəzənən süfrələr açılır, soydaşlarımız mənəvi rahatlıqla, dincliklə öz evlərində, həyətlərində qeyd edir bu bayramı. Şuşa cənab Prezidentin qətiyyətli addımlarının, dərinməzmunlu nitqlərinin, imzaladığı protokolların, tarixi nailiyyətlərin ən yaxın şahidinə çevrilir, mədəniyyətlərarası dialoqa əvəzsiz töhfələr verir, İslam sivilizasiyasının beşiyinə çevrilir, mədəniyyət paytaxtı statusunu uğurla daşıyır. Zəngilanda, Füzulidə, Laçında, Xocalıda qurulan toy çadırlarının tezliklə Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Xankəndidə, azad Qarabağın bütün ərazisində, Qazaxın 4 kəndində qurulması, elimizdən, obamızdan həmişə vağzalı sədalarının eşidilməsi, bayram əhval-ruhiyyəsinin duyulması diləyi ilə...

**Nail ƏSGƏROV**

# Tarixin yadigarı: Nüsnüs hamamı



“Yolçu yolda gərək”, – deyib bu dəfə yolumuzu Ordubadın qədim Nüsnüs kəndinə saldıq. Dağlar arasında yerləşən gözəl mənzərəli bu kənd ikimərtəbəli və daşdan tikilmiş, gözəl eyvanlı evləri ilə bura gələn qonaqların diqqətini çəkir. Həqiqətən də, bu kəndin mənzərəsi, şirin ləhcəli, mehriban, dəyərlərimizə sahib çıxan sakinləri bizi Nüsnüsü vəsf etməyə daha da həvəsləndirdi. Bu yaşayış məntəqəsi səs-sorağı ölkəmizin hüdudlarını aşan adlı-sanlı ziyalılar, müxtəlif sənət adamları yetişdirib. Səmimi, təəssübkeş nüsnüslülər doğma yurd yerinin hər daşının, hər qayasının tarixini əzbər bilirlər. Kəndin səfalı iqlimi burada keyfiyyətli limon, bağçılıq məhsulları yetişdirməyə imkan verib. Müstəqilliyimizin bəhrələri burada da xeyildir. Kənddə kompleks quruculuq tədbirlərinin həyata keçirilməsi Nüsnüsü müasir Azərbaycan kəndinə çevirib. Bu da insanların qurub-yaratmaq əzmini daha da artırıb. Torpağa bağlı nüsnüslülər bu imkanlardan səmərəli istifadə edirlər.

Kəndi gəzərkən torpağın altında bir tikilinin başıaçıq günbəzi gözümüzə sataşdı. Öyrəndik ki, bu tikili əsrlərin bir mirasıdır. Qədim yeraltı hamama girmək arzumuzu gerçəkləşdirdik. Burada elə bil qədim dövrə səyahətə çıxmısan. Aşağı enirsən və balaca bir girişlə üz-üzə dayanırsan:

*Hamam hamam içində,*
*Xəlbir saman içində,*
*Dəvə dəlləklik eylər*
*Köhnə hamam içində.*

Hamamın özünəməxsus memarlıq quruluşu bizə bu folklor nümunəsini xatırlatdı. Qeyd edək ki, artıq istifadəyə yararsız olan bu qədim tikili nağıllar aləminin yadigarı kimi hələ ki, ayaqda durmaqdadır.

Girişdən daxil olarkən nostalji hisslər adamın ruhuna hopur. Bu tarixi tikilidən söz açmışkən qeyd etmək yerinə düşər ki, ordubadlı ustalar gördüyü işlərdə çox diqqətcil olublar ki, belə keyfiyyətli abidə yarada biliblər.

Tarixdən də məlumdur ki, Azərbaycanda ta qədimdən yerüstü hamamlarla yanaşı, yeraltı hamamlar da inşa olunub. Yeraltı hamamlar qrupuna daxil edilən Nüsnüs hamamı XIV-XV əsrlərin yadigarıdır. Özünəməxsus və maraqlı memarlıq xüsusiyyəti olan bu hamamın planı düzbucaqlı formadadır. Hamamın yuyunma salonu, onlara bitişik köməkçi otaqları vardır. Uzunluğu 22,6 metr, eni 9,4 metr olmaqla ümumi hündürlüyü 5,6 metrdir. Soyunma və yuyunma salonu bir-biri ilə kiçik tamburlar vasitəsilə birləşdirilmişdir. Qeyd etdiyimiz kimi, mənbələr və kənd camaatının dediyinə görə, isti su hovuzu yuyunma salonuna bitişik inşa olunan hamamın xəznəsinə su dağdan çəkilmiş saxsı borular vasitəsilə gətirilirmiş. Su xəznənin arxasında inşa olunmuş anbarda toplanır, həmin anbardan da hamama və hovuza verilirmiş. Hamama gələn adamlar isti suyu yuyunma salonuna açılan hovuzdan, soyuq suyu isə digər borular vasitəsilə xəznənin yanında yerləşdirilmiş otaqdan götürürdülər. Çöldən oyuqlar kimi görünən bacalar hamamı işıqlandırmaq üçün nəzərdə tutulub.

Yuyunma otağı və ona birləşən otaqların altından isti hava verən kanallar gedir. Kanalın bir ucu ocağa, digər ucu isə bacaya birləşdirilib. Hamamı digər Orta əsr hamamlarından fərqləndirən cəhəti onun divarlarının, günbəz və tağ-tavanlarının dağ daşı ilə inşa olunmasıdır. Keçmiş zamanlarda hamamı qızdırmaq üçün samandan və odundan istifadə ediblər. Saman ocağa qoyulduqdan sonra ocağın bacası və ağzı qapanır, yaranan istilik həm xəznədəki suyu, həm də hamamın döşəməsinin altında yerləşdirilən borulardan keçərək yuyunma zalını qızdırırdı. Hamamın ocaq olan divarlarında hisdən qaralmış yerləri görmək mümkündür...

Abidələr bizim tariximizdir. Onları qorumaq isə hər birimizin borcudur. Ölkəmizdə belə abidələrə göstərilən qayğı da yüksək səviyyədədir və düşünürük ki, Nüsnüs hamamı da bu qayğıdan bəhrələnəcək.

**Aidə İBRAHİMOVA**



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Danyeri kəndindən olan şəhidimiz Elşən Məmmədovun anası Mələk Məmmədovanın, Ordubad rayonunun Azadkəndindən olan şəhidimiz Namiq Xəlillinin atası Həsən Xəlillinin və Babək şəhərindən olan şəhidimiz Şükür Hacıyevin anası Fatma Hacıyevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Elşən Əziz oğlu Məmmədov

*(21.04.1999-21.10.2020)*

## Elimizin mərd oğlu





Övladımla bağlı xatirələrim o qədərdir ki... Hansından başlayım, hansından bitirim, bilmirəm. Elşən uşaqlıqdan çalışqan və hazırcavab idi. Məktəbdə dərslərini yaxşı oxuyurdu. Sinif yoldaşlarından seçilirdi. Müəllimləri hey tərifləyirdi. Bir az böyüdükdən sonra dedi ki, ana, mən hərbçi olmaq istəyirəm. Hərb sahəsini sevirəm. Sözün açığı, çətin olduğu üçün bu sahəni məsləhət görmürdüm. Ali təhsil almasını istəyirdim. Ancaq Elşən israrla hərbini seçdi. Bizim xəbərimiz olmadı. Özü sənədlərini hazırlayıb təqdim etdi. Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyi oxudu. Ardınca da Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsilini tamamladı. Sonra Füzulidə yerləşən "N" hərbi hissəyə təyinat aldı. Hərbi xidmət dövründə hər dəfə danışanda deyirdi ki, inşallah, tezliklə torpaqlarımızı azad edəcəyik. Mən Qarabağı almayınca başqa yerə təyinat almaq istəmirəm. Arıq olsa da, qoçaq idi. Bir işin dalınca axıra qədər gedərdi.




2020-ci ildə müharibə başlayan günlərdən döyüşlərə atıldı, canla-başla iştirak etdi. Ancaq ön cəbhədə olduğunu evdən gizlədirdi. Heç kimə demirdi. Axırıncı dəfə günorta saatlarında zəng eləmişdi. Danışığından hiss etdim ki, müharibənin qızğın yerindədi. Dedi ki, döyüş yoldaşlarımızdan şəhid olanlar var. Onların qisasını mütləq almalıyam. Nə biləydim ki, övladımın səsini sonuncu dəfə eşidirəm. Çox ailəcanlı idi. Xidmətdə olan vaxtlar tez-tez evə zəng edirdi. Bacısını da çox istəyirdi. Müharibə vaxtı məndən çox bacısı ilə telefonda danışardı. Dost kimi idilər. Heç nəyi bir-birlərindən gizlətməzdilər. Öz qazancı ilə bacısına yeni telefon da almışdı. Qohum-qonşuya qarşı da fədakar idi. Uşaq yaşlarından xeyirdən-şərdən qalmazdı. Bacım, qardaşım, hər kəs deyirdi ki, fəxr elə ki belə oğul böyütmüsən. Bəli, bütün şəhid anaları kimi mən də övladımla qürur duyuram. Elşən təkcə mənim deyil, bütün Azərbaycanın mərd oğludur. Müharibə iştirakçıları, qazilər bizi ziyarətə gəlirlər, Elşənlə bağlı xatirələrini bölüşürlər. Sağ qayıtmağına həyatimizdəki bütün qoyunları qurban demişdim... Qismət, onu yenidən görmək nəsib olmadı. Vətən sağ olsun!

## Namiq Həsən oğlu Xəlilli

*(25.02.1994-23.10.2020)*

## O, əsgərlərinə qarşı çox həssas komandir idi



Namiq istiqanlı uşaq idi. Hərbiyə marağı da balacalıqdan yaranmışdı. Sənədlərini hazırlayıb Naxçıvan şəhərindəki hərbi liseyə təqdim etdi. İmtahandan uğurla keçdi. Sonra isə ali hərbi təhsilini Bakıdakı Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirdi. 2016-cı ildə institutu uğurla başa vurub təyinatını Naxçıvana – Qıvraq qəsəbəsindəki hərbi hissəyə aldı. Əvvəlcə Sədərəyin Dəmirçi kəndində, sonra isə ön cəbhədə xidmət apardı. Ümumiyyətlə, bir neçə il ərzində müxtəlif xidmət yerlərinə təyin olundu. Axırıncı dəfə Suqovuşanda xidmətdəydi. Bölük komandiri idi. Müharibə başlayanda o da digər Vətən oğulları kimi, döyüşlərə qatıldı. Telefonla danışanda deyirdi ki, hər şey qaydasındadır. Bərk uşaq idi, hər sözü danışmazdı. Şəhid olmamışdan bir gün əvvəl danışdıq. Kef-hal etdi. Hər zamankı kimi yaxşıyam dedi. Səhəri günü şəhadətə yüksəldi.



Əsgərlərinə qarşı mehriban idi. Onları çox sevirdi. Anasını itirəndən sonra əsgərlərinə qarşı daha da həssas olmuşdu. Aldığı maaşı evdən çox onlara xərcləyirdi. Şəhid olandan sonra dostları, xidmət yoldaşları evimizi ziyarətə gəlmişdilər. Namiq barədə o qədər xoş sözlər dedilər ki. Yada düşdükcə qəlbim qürurla dolur.

Vətən bizə ulu babalarımızdan əmanətdir. Onu qorumaq hər birimizin borcudur. Təəssüf ki, Birinci Qarabağ müharibəsində torpaqlarımızın bir qismini qoruya bilmədik, itirdik. Uzun illər idi, ürəyimiz qübar bağlamışdı. Vətən həsrəti çəkirdik. İgid oğullarımız bu həsrətimizə son qoydu. Ali Baş Komandanımızın rəhbərliyi ilə bütün dünya gücümüzü gördü. Yüzlərlə vətənpərvər oğullar irəli əmri ilə ordumuzun sıralarına qoşuldu. Bu gün Qarabağımızın hər qarışı dirçəldikcə biz şəhid atalarının da ürəyinə su səpilir. 30 ildir, torpaqlarından didərgin düşənlər geri qayıdır. Şuşada, Laçında, Xankəndidə şəhidlərimizin, qazilərimizin sinəsinə sıxdıqları üçrəngli bayrağımız dalğalanır. Ali Baş Komandanın azad olunan torpaqlara səfərlərini izləyirik. Onun hər nitqi qəlbimizi qürurla doldurur. Bu gün hara üz tuturuqsa, böyük hörmətlə qarşılaşırıq. Şəhid ailələrinə ehtiram təqdirəlayiqdir. Bu gün hər birimiz qalib xalqın nümayəndəsiyik. Alnımız açıq, üzümüz ağdır. Fəxr edirəm ki, mənim övladım Namiqin də ölkəmizin haqq işində payı vardır. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı arzulayıram.







## Şükür Bayram oğlu Hacıyev

*(25.08.1999-6.10.2020)*

## Mübarizə haray, Suqovuşana sipər olan qəhrəman Vətən oğlu



Mübariz harayının nidalarında, Poladlaşan biləklər. Qola ağıl, ağıla qol olan, çiçək olub qayasında bitən və heç solmayan, saralmayan xarıbülbüllər. 44 günə bütöv Azərbaycanın xəritəsini çəkən ölməz qəhrəmanlar. O qəhrəmalar sırasında mənim oğlum Şükür də var. Şükürün ən böyük arzusu el-oba, xalq arasında sevilib, seçilən insan olmaq idi. Öz arzusuna çox keçmədən qovuşdu. Son damla qanıyla, canıyla Vətən torpağına sipər oldu. Vuruldugu yerdə yuxuya getdi. Vətən torpağı ona döşək, səması yorğan oldu. Şükür uşaqlıqdan qabiliyyəti ilə yoldaşlarından fərqlənirdi. Hərbi liseydə oxuyanda "Mübariz İbrahimovun qisasını alacağıq" kimi sözləri eşidirdim. Elə verdiyi sözlə də tamamladı Vətən borcunu. İki bayraqla getmişdi döyüşə. Bir bayrağı təyinat nöqtəsinə çatdırsa da, digərini Suqovuşana sanca bilmədi. Elə həmin bayrağa da sarılıb evə qayıtdı. Şükür 2020-ci ilin oktyabrın 4-də mənə zəng etdi. Dedi, ana, sənə söz vermişdim Mübariz postunu alacağıq. Şükürlər olsun ki, aldıq. Şükürün son verdiyi ən xoş xəbər bu oldu. 6 oktyabrda Suqovuşan yüksəkliyində 7 yoldaşı ilə birgə qəhrəmancasına şəhid oldu. Talış kəndinin alınmasında iştirak etdi. Amma oranı azad görmək qismət olmadı Şükür və döyüş yoldaşlarına. Şükürlə hərəkət edən igidlər bir gecədə düşmənə qan uddurdu. 22 postu darmadağın edərək düşmənə toy tutdular. Bu nər igidlər oktyabrın 1-nə kimi heç bir itki vermədən düşmənin bağrını qan etdilər. Döyüş yoldaşları deyir ki, minamyotlar qulaq batırarkən belə onlar başlarını aşağı əymədilər. Sən demə, uşaq sandıqlarımızın içində bir aslan yatırmış. Sən demə, azadlığımızı bizə zərrə-zərrə, qram-qram onlar daddıracaqmış. Əvvəlcə mənə itkindir dedilər. Daha sonra orada telefon işləmir söylədilər. Amma heç kəs bilmirdi ki, mən duyğularımı bağrıma basmışam. Anayam axı. Analar övladlarının başına gələnləri hiss edər. Mən də olanları hiss edirdim. Noyabrın 30-da Şükürə qovuşdum. Öz böyüdüyü torpaqda 44 günlük döyüşün 44 cümlələik şahidinə çevrilərək Vətən torpağında dəfn edildi. Bizim təsəllimiz Qarabağdır. Şükürlər olsun, Azərbaycanımız bütövdür. Otuzillik həsrətə son qoyulub. Torpaqlarımız azaddır. Əbədi bahar qayıdıb el-obamıza. Yurdumuzun hər qarışında Qələbə rəmzli bayrağımız dalğalanır. Şükür kimi oğullarımızın sayəsində biz Zəfər dastanı yazdıq. Qələbəmiz əbədi olsun.

# “Naxçıvanın 100 yaşlı muxtariyyətinə ən yaxşı töhfə, onun koloritini canlandıracaq müfəssəl bir film ola bilər”

Müasir dövrümüzdə çəkilən Azərbaycan filmlərindən söhbət açılanda adını tez-tez eşitdiyimiz məşhur “Dolu” filminə hələ orta məktəbdə oxuduğum illərdə tamaşa etmişdim. Sevilən yazıçı, tanınmış jurnalist Aqil Abbasın ssenarisi əsasında işıq üzü görmüş bu ekran əsəri ürəyində Vətən sevgisi daşıyan, azadlığı, müstəqilliyi kiçik hekayələrdə, şeirlərdə öyrənən şagirdlərə, sözün həqiqi mənasında, fantastik nağılları xatırlatsa da, gəncliyi, gələcəyi 90-cı illərə təsadüf edən soydaşlarımıza Qarabağ ağrısını, yurd həsrətini, bir sözlə, o ağrılı-acılı illəri xatırladırdı. İndi sözügedən hər iki əsərin – filmin də, romanın da ictimaiyyətə çatdırılmasından illər ötüb. İndi Qarabağ da azad olunub. Ancaq müəllifin evindən, elindən uzaqda qaldığı illərin həsrəti hələ də sovuşmayıb. Aqil müəllimin özü də söhbətimiz zamanı bunu təsdiq etdi, həm də dəfələrlə…



***– Aqil müəllim, sizi Naxçıvanda xoş gördük. Düzdür, bu sizin Naxçıvana artıq neçənci səfərinizdir. Ancaq hər gəlişinizdə fərqli-fərqli xatirələrdən söhbət açırsınız. Deyəsən, Naxçıvan Aqil müəllimin ürəyində özünə əvəzsiz yer tutub…***

– Mən hər zaman deyirəm ki, Naxçıvan Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Xüsusən də sakitliyi və təmizliyi ölkəmizin digər şəhərləri ilə müqayisə edilə bilməz; digər böyük şəhərlərimizdə – nə Gəncədə, nə də paytaxt Bakıda sən bu təmizliyi və sakitliyi görə bilərsən. Hətta mən bir neçə məqaləmdə, köşə yazılarımda Naxçıvan haqqında yazmışam, burada görüb təsirləndiyim hadisələrdən söhbət açmışam. Yəqin, yenə yazacağam... Ancaq yaradıcılığımla tanış olanlar bilir ki, mən daha çox Qarabağdan yazıram, illərlə işğal altında qalan diyarımız və erməni zülmünə məruz qalan soydaşlarımız mövzumun əsas ideya istiqamətini təşkil edir…

***– Qeyd etdiniz ki, yaradıcılığımda daha çox Qarabağ mövzusuna önəm verirəm. Lakin müasir dövrümüzün bir çox yazıçıları deyir ki, işğal, deportasiya və bu kimi faktların ədəbiyyata gətirilməsi düzgün deyil. Çünki ideya köhnə, mövzu isə ağlayıb-sızlamaq…***

– Mən bu fikirlərlə qəti surətdə razılaşmıram. Əgər söhbət mənim yaradıcılığımdan gedirsə, deyə bilərəm ki, mən heç zaman ağlayıb-sızlamaqdan yazmamışam. Mənim qələmə aldığım bütün mövzular reallıqdır, yalnız və yalnız reallıq! Məhz elə yazıçının qüdrəti də bu reallıqları ədəbiyyata gətirdikdə özünü göstərə bilir. Bununla belə mən hesab edirəm ki, Qarabağ mövzusu heç zaman Azərbaycan ədəbiyyatında köhnələ bilməz. Çünki yaramız hələ təzədir, qaysaq bağlamayıb. İllər keçsə də, Qarabağ haqqında hələ çox yazılacaq, bu diyarın ab-havası, həyatı romanlara, hekayələrə mövzu olacaq. Onu da bilmək lazımdır ki, axı Qarabağ mövzusu yalnız işğal faktları, deportasiya və digər amillərlə şərtlənmir. Əgər söhbət sanballı yaradıcılıq nümunəsindən gedirsə, bu zaman o regionun insanlarının koloriti ədəbiyyata gətirilməlidir. Əsərin yaxşı olmasında bir neçə qayda var. Onlardan biri, hətta birincisi haqqında danışdığın ərazinin, mühitin, insanların koloritini yaratmaqdır. Mən Naxçıvanda oxucularımla keçirilən görüşdə onlara bir neçə kitab hədiyyə etdim. Bax həmin kitablarda mən Qarabağın koloritini yaratmışam…

***– Aqil müəllim, kolorit deyəndə nəyi nəzərdə tutursunuz?***

– Yəni yazıçının haqqında yazdığı ərazinin coğrafi mühiti, təbiəti, o yerin insanlarının danışığı, dostluğu, düşmənliyi, məşğuliyyəti, bir sözlə, həyat tərzi… Bu, yalnız Qarabağ mövzusuna aid deyil, təbii ki. Eləcə də Naxçıvandan yazırlarsa, mütləq onun koloritini yaratmaq lazımdır. İnsanların danışığını, məşğuliyyətini, ənənələrini, bir az əvvəl qeyd etdiyim kimi, onların həyat tərzini canlandırmaq lazımdır. Çünki hər bir bölgənin özünün fərqli koloriti var, fərqli adət və ənənələri var. Onları əsərdə canlandırmaq peşəkarlıq və yazıçıdan ədəbi məharət tələb edir. Rəhmətlik Mirzə Cəlil öz əsərlərində Naxçıvanın koloritini yarada bilmişdi. Düzdür, o, bir az satirik üslubda, necə deyərlər, ironiya ilə yazıb-yaratmışdı. Ancaq siz baxın bu yerin insanlarının dünyagörüşünü, həyat tərzini, mühitini necə yaxşı canlandıra bilib… Mirzə Cəlildən sonra yenə də Naxçıvanı öz əsərlərində sanballı şəkildə canlandıran yazıçılar olub. Son dövrlərin ən naxçıvanlı olan bir yazıçısı var idi: Hüseyn İbrahimov. Onun “Sabahın sorağında” adlı gözəl bir əsəri var. Yuxarıda sadaladığım faktları müəllif sözügedən əsərdə elə gözəl, müfəssəl qeyd edib ki… Onunla bərabər Əyyub Abbasovun qələmə aldığı “Zəngəzur” romanı və digər gözəl ədəbiyyat nümunələrimiz qeyd edilən yerlərin və o yerin insanlarının kolotirini yarada bilib...

***– Aqil müəllim, istəyirəm, sizinlə bir az fərqli mövzuda söhbət edək. Bildiyim qədəri ilə azad edildikdən sonra uşaqlığınızın, gənclik illərinizin keçdiyi Ağdam rayonuna bir neçə dəfə səfər etmisiniz. Nə hisslər keçirdiniz? İllərin həsrətini ovundura bildinizmi?!***

– Qarabağ həsrəti qəlbimizdə elə bir yer edib ki, onu çətin bir neçə səfərlə unuda biləк. Düzdür, indi Ağdam yenidən qurulur, müasir binalar tikilir, körpülər salınır, yollar çəkilir. Baxdıqca insanın ürəyi açılır. Ancaq soydaşlarımızın yenidən, lap işğaldan əvvəlki illərdə olduğu kimi orada yurd-yuva salması bir neçə il alacaq. Hətta mənim bir povestim var “Tut ağacı, donuz kababı və Aşotun məktubu”. Həmin povestin qəhrəmanı dostuna deyir ki, Ağdam bilirsənmi nə zaman Ağdam olacaq? Dostu sualına sualla cavab verir: “Nə vaxt?” Deyir ki, nə zaman Ağdam kinoteatrının qarşısında iki ağdamlı oğlan qız üstündə birbirləri ilə dalaşanda bax onda biləcəksən ki, Ağdam artıq Ağdamdı (gülür).

***– Aqil müəllim, Ağdamda ev tikməyi planlaşdırırsınız? Bəlkə, tikmisiniz xəbərimiz yoxdur...***

– Yox, hələ ki qismət olmayıb. Qismət olsa, əlbəttə ki, tikəcəyəm.

***– Bəlkə, dövlət o vaxta qədər sizə ev bağışladı…***

– Razıyam, mənə verilən evi ağdamlılara və ya imkansızlara versinlər. Onsuz da Ağdamda elə bir ailə qalmayacaq ki, dövlətimizin diqqətindən kənarda qalsın. Ancaq yenə də əgər elə bir şey olacaqsa, mənə verilən evi ehtiyacı olan vətəndaşlarımıza versinlər. Bu məni daha çox sevindirər...

***– Arzu edirdiniz ki, Ağdam işğaldan azad olunsun, Məmməd Araz yadigarı, İradə xanım Tuncayla ikinci dəfə orada özünüzə toy edəcəkdiniz. Nə oldu? Edə bildinizmi?***

– Bəli, 2021-ci ildə eləmişəm toyu. Təxminən, 70-80 nəfər adam çağırmışdım, hamısı da gəlmişdi, deyə-gülə iştirak etdilər. Yaxşı yeməklər hazırlatdım, yedik, içdik. Sonra da bişən yeməkləri göndərdim postlara, keşiyimizdə dayanan əsgərlərimizə, hərbçilərimizə. Halal xoşları olsun. Bir sözlə, hər şey ürəyimcə olmuşdu…

***– Aqil müəllim, həm yazıçı-jurnalist olmaq, həm də millət vəkili kimi fəaliyyət göstərmək yormur ki sizi?***

– Qətiyyən yorulmuram. Həm yazıçı-jurnalist kimi, həm də deputat olaraq çalışıram işimin öhdəsindən layiqincə gəlim. İşin ağırlığı, yüngüllüyü məni yormaz. Məni ancaq sarsaq adamlar yorur…

***– Kimdi o sarsaq adamlar?***

– Nə dediyini, nə danışdığını bilməyən insanlar. Haqsız insanlar… Gəlirlər, dərdlərini danışırlar; istəyirsən düzü, səhvi izah edəsən, başa düşmək istəmirlər, narazı qalırlar. Onlara izah etmək olmur ki, ay insan, bax bu işdə, bu məsələdə günah səndədir. Başa düşmürlər, ya da başa düşmək istəmirlər, bilmirəm… Ümumiyyətlə, insanlara nəyisə izah etmək, onları başa salmaq çox çətindir…

***– Aqil müəllim, Yazıçılar Birliyi ilə işləriniz, münasibətiniz nə səviyyədədir? Ümumiyyətlə, neçənci ildən birliyə üzvsünüz?***

– 1986-cı ildən Yazıçılar Birliyinin üzvüyəm…

***– Yəni Mirzə İbrahimov, İsmayıl Şıxlı, ardınca isə Anarla bir dövrü bölüşmüsünüz, onların sədrliyini görmüsünüz. Həm müstəqillik illərini, həm də keçmiş SSRİ dövrünə şahidlik etmisiniz. O illərdə işləmək asan idi, yoxsa bu illərdə?***

– O illərdə Yazıçılar Birliyində ancaq məmurlar işləyirdi. Hamısı – məsul vəzifələrdən tutmuş sıravi üzvlərinə qədər hər biri dövlət məmuru idi. İdeoloji təbliğat hökm sürürdü. Sədrləri də məmur idi, elə katibləri də! Hətta gənc yazıçılara belə zorla yaradıcılıq meydanı verirdilər. Yadıma gəlir ki, o illərdə – İsmayıl Şıxlı sədr olanda birliyin özündə onu istəməyənlər var idi, necə deyərlər, qruplaşma var idi. Bu şeylərə görə İsmayıl dözmədi, istefasını verib sədrlikdən uzaqlaşdı. İndi ancaq elə deyil. Vəziyyət tamam başqadır…

***– Deyirsiniz ki, birliyin daxilində qruplar var idi və onlar istəmirdi, İsmayıl Şıxlı sədr olsun. Maraqlıdır, onlar kimlər idi?***

– Yox, mən onu deyə bilmərəm (gülür). Adların çəkmirəm. Ancaq deyə bilərəm ki, belə hadisələr var idi orada…

***– O zaman siz “Ədalət”dən danışın. Qəzetdə vəziyyət necədir? Oxucu varmı?***

– Qəzetdə vəziyyət çox pis... Demirəm ki, qəzet oxuyan yoxdur, var. Ancaq illər ötdükcə oxucular azalır. İndi artıq hər bir məlumatı sosial şəbəkələrdən öyrənmək olur. Bu səbəbdən qəzetçilik arxa planda qalır. Ancaq yenə də daimi oxucuları var. Onlar qəzetə, qəzetçiliyə qiymət verirlər. Bir də ki, qəzet gərək oxucuların çəkib öz səviyyəsinə qaldıra bilsin, daha qəzet oxucularının səviyyəsinə düşsə, nə oldu ki...

***– Söhbətimizin sonuna çatdıq, Aqil müəllim. Həmkarlarım, adətən, bu qəbildən olan sualları başda verirlər, mən sona saxladım. Naxçıvanımız bu il muxtariyyətinin 100 yaşını qeyd edir. 100 ilin muxtariyyətini necə salnamələşdirək? Film, roman, yoxsa...***

– Əvvəla, onu deyim ki, Zəngəzur dəhlizindən keçəcək yol açıldıqdan sonra burada həyat tamam dəyişəcək, Naxçıvan daha da gözəlləşəcək, müasirləşəcək. Yol açıldıqdan sonra regionun turizmi də, iqtisadiyyatı da inkişaf edəcək. Və mən inanıram ki, bu hadisələrdən sonra bir zamanlar Naxçıvandan iş ardınca Rusiyaya, Türkiyəyə çıxıb gedən insanlar geri qayıdacaqlar. Çünki yaxşı iş şəraiti də yaranacaq. Və sualınıza cavab olaraq sonda onu deyirəm ki, Naxçıvan muxtariyyətini salnamələşdirmək, onu gələcəyə aparmaq üçün ən yaxşı yaradıcılıq mövzusu filmdir. Mən belə hesab edirəm ki, Naxçıvanın 100 yaşlı muxtariyyətinə ən yaxşı töhfə, onun koloritini canlandıracaq müfəssəl bir film ola bilər…

***– Maraqlı müsahibə üçün təşəkkür edirik, Aqil müəllim!***

– Sağ olun…

Məcid RƏŞADƏTOĞLU

## Tanınmış yazıçı-jurnalist Aqil Abbasla görüş keçirilib

İyunun 19-da Naxçıvan “Gənclik” Mərkəzində Azərbaycan Respublikası Gənclər Fondunun Naxçıvan Filialının təşkilatçılığı ilə yazıçı-jurnalist, Milli Məclisin deputatı Aqil Abbasla görüş keçirilib.




Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Milli Məclisinin deputatı Cəbi Quliyev və Azərbaycan Respublikası Gənclər Fondunun Naxçıvan filialının direktoru Arzu Qasımov çıxış edərək Aqil Abbasın özünəməxsus yazıçılıq üslubundan, tanınmış qələm sahibinin məşhur “Dolu” romanı və roman əsasında çəkilmiş eyniadlı filmin gənclərimizə, eləcə də digər insanlara aşıladığı vətənpərvərlik hissindən söz açıblar. Diqqətə çatdırılıb ki, Aqil Abbas yaradıcılığının ana xəttini vətənpərvərlik və milli təəssübkeşlik hissləri təşkil edir. Müəllifin qələmə aldığı hər bir hekayə və povestdə Azərbaycan xalqının mübarizlik əzmi, Qarabağ həsrəti, azadlıq hissi və düşmənə qarşı qisas yanğısı öz bədii qüdrətini qoruyub saxlayır.

Vurğulanıb ki, Filologiya fakültəsinin məzunu olan Aqil Abbas əmək fəaliyyətinə müəllim kimi başlayıb. O, müasir Azərbaycan jurnalistikasının və çağdaş ədəbiyyatımızın sevilən nümayəndələrindən biridir. Onun Qarabağla bağlı işıq üzü görən bir çox yaradıcılıq nümunələri 30 il düşmən işğalında olan torpaqlarımızın azad olunmasına xalq inamının yaranmasında, o cümlədən milli ruhun saxlanılmasında və qələbə əzminin formalaşmasında böyük rol oynayıb. Ümumilikdə, onun həyatı və yaradıcılıq yolu ölkəmizin siyasi və mədəni həyatında mühüm rol oynayır.

Ardınca yazıçı-jurnalist Aqil Abbas tədbir iştirakçıları ilə səmimi söhbət aparıb, onların suallarını cavablandırıb. Daha sonra yazıçı Vətən müharibəsində qəhrəmanlıqla döyüşən qazilərimizlə görüşüb, onlara və digər tədbir iştirakçılarına müəllifi olduğu kitablardan hədiyyə edib.

Sonda xatirə fotoları çəkilib və “Dolu” filminə baxış olub.

# Zəngəzurluların izi ilə



*Zəngəzur, zəngim haray,*
*Döyüşüm, cəngim, haray,*
*Yurd həsrəti çəkəndən*
*Açılmır rəngim, haray.*

Ordubad rayonunda bir kənd var: Qoruqlar. Bu kəndin təməlini zəngəzurlular qoyub. Kiçik kənddə iki qəbiristanlıq mövcuddur. Biri kəndin girişindədir. Hasara alınmış məzarlıqdakı lövhədə yazılıb: "Ey yoldan ötənlər! Bir anlıq ayaq saxlayın. Bu məzarlıqda yatanlar qaçqın düşən insanlardır. Zəngəzur mahalının Qafan bölgəsinin Oxçu, Şabadin, Buğacıq, Atqız, Pirdavdan kəndlərindəndir. 1918-ci ilin payızında Qapıcıqdan aşıb gəliblər. İndiki gənclər, qan yaddaşınıza yazın bunları".

İkinci bir qəbiristanlıq kəndin yuxarısında salınıb. Yurd həsrətlilərin baş daşında belə yazılıb: Şirin Camalov 1884-1973. Qafan-Şabadin-Ordubad-Qoruqlar, Şamxal Bayramov 1909-1990. Qafan-Buğacıq-Ordubad-Qoruqlar. Əzizləri tarixi yaddaşı saxlamaq üçün məzar daşlarında doğulduqları yurd yerinin adını həkk ediblər!

Zəngəzurun başını illərdir, qara buludlar alıb. Zəngəzur günümüzün ağrısı deyil ki, illərdir, Ağrı dağı hündürlüyündə ürəyimizə dərd qalanıb – Vətən dərdi, yurd həsrəti. Zəngəzur silsiləsinin ən hündür zirvəsinə – Qapıcığa çıxmaq lazımdır ki, əsən nəsim, bəlkə, bağrına ox sancılmış yurd yerindən xəbər verə…

Xəbər verə ki, neçə qəbiristanlıqlarımız, neçə daş körpülərimiz, qalalarımız dağıdılıb, neçə-neçə yurd yerlərimiz viran qalıb. Zəngəzur o Zəngəzur deyil. İnsanlarının sığalı ilə torpaqları bərəkətlənən, barlı-bəhərli bağları, güllü-çiçəkli dağları ilə füsunkar təbiətli Zəngəzur deyil artıq. Doğma sakinləri, əzəli sakinləri qayıdana qədər Zəngəzur o Zəngəzur deyil...

Bizi o illərdən əsrlər ayırsa da, uzaq tarixi hadisələrin şahidləri olmasaq da, bəlli bir soyumuz, kökümüz var, yazılan tariximiz, torpağın bağrına şəhadət kimi sancılan abidələrimiz var. Ən əsası tarixi faktlar, şahidlər var. O tarixi faktların və şahidləri qoruyan ocaqlardan biri də Naxçıvandır. Zəngəzurluların ən dar günündə onlara qucaq açan Naxçıvan.

Əzəli Azərbaycan torpağı olan Zəngəzur ərazisi şimaldan Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən ərazinin böyük bir hissəsi xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlıqlarının tərkibində idi. Mahal 7 bölgədən ibarət olub: Qafan, Gorus, Qarakilsə (1940-cı ildən Sisian), Mehri, Zəngilan, Qubadlı, Laçın.

Tarixi mənbələrdən də məlum olduğu kimi, ermənilər bu ərazilərə sonradan köçürülüb. XX əsrin əvvəllərində Zəngəzur mahalında 240 azərbaycanlı, bundan üç dəfə az erməni kəndi olub. Təkcə 1828-ci il ərzində Qacarlar dövləti ərazisindən Şimali Azərbaycan xanlıqları ərazilərinə 8249 nəfər erməni köçürülüb. Köçürülmələrin nəticəsində Qafqazda ermənilərin sayı 10 dəfədən artıq yüksəlib. 1831-ci ildə Cənubi Qafqaza köçürülən 125 min erməni 1828-31-ci illər Qacarlar dövləti və Osmanlı Türkiyəsindən köçürülənlər idi. Bütün faciələr də elə bundan sonra başladı. Köçürülənlər öz xislətlərinə uyğun, aid olmadıqları torpaqlara soyqırımı, deportasiya gətirdilər, yurd yerlərini viran qoydular. İllər keçsə də, xislətləri heç dəyişmədi.

1905-07-ci il qırğınları və 1918-20-ci illər soyqırımı Zəngəzurdan da yan keçmədi. Xüsusən Qafan bölgəsinin Oxçu, Şabadin, Atqız, Buğacıq kəndlərində ermənilər xüsusi qəddarlıqla soyqırımı cinayətləri törətmişlər. Ordubad rayon Qoruqlar kənd sakini ***Məzahir Əliyev*** Qafan rayonunun Buğacıq kəndindən olan atası Kərim kişinin nəql etdiklərini yaddaşına köçürüb: "1918-ci il noyabr ayında ermənilər Şabadinə hücum edib yerləyeksan edəndən sonra kəndin 2-3 kilometrliyində olan Oxçu kəndinə elçilərini göndərirlər ki, bəs, barışığa gələk. Erməninin ənənəvi hiyləsinə aldanan kənd camaatını bir binaya yığaraq od vurub yandırırlar".



Naxçıvan və Dərələyəzdə qanlı qırğınlar törədən Andronik Ərikli dağını aşaraq 1918-ci ilin yayında Qarakilsənin qərbində yerləşən azərbaycanlı kəndlərini – Comərdli, Ərəfsə, Murxus, Şıxlar, Dəstəgird, Şələk, Pulkənd, Şəki, Qarakilsə, Almalıq, Ağyol, Armudlu, Arıqlı, Sofulu, Qıvraq, Əlişar, Məliklər, Püsək, Şükar kəndlərini dağıdıb yandırdı. Rəqəmlərə istinad edəndə törədilən faciənin miqyasını daha aydın görmək olur. 12 min azərbaycanlıdan 5 minə yaxını qətlə yetirilmiş, yaxud deportasiya zamanı aclıqdan, soyuqdan və yoluxucu xəstəliklərdən ölmüşdülər. Bu qırğından canını salamat qurtaranlar Ərikli dağını aşıb Naxçıvana, Şahbuza, Culfaya, Ordubada pənah apardılar.

Şahbuz rayon Kükü kənd sakini ***Aydın Tarışov***un babası Binyət Fərzəliyev Pulkənddə anadan olub. 1918-ci ildə ermənilər Pulkənddə Binyət kişinin anası kimi onlarla yaşlı qadınları, uşaqları, bir sözlə, qabaqlarına çıxan hər kəsi qılıncdan keçiriblər. Binyət kişi atı ilə dağları aşaraq Qanlı göl yaylağına, oradan da Küküyə enib. Bibisinin yanına gəlib, elə o vaxtdan da bu kənddə məskunlaşıb.



Culfa rayon Şurud kəndindən olan ***Hüseyn Şəkərəliyev***in babaları Qafanın Kurud kəndindən köç ediblər. 1918-ci il hadisələri ilə bağlı babalarından eşitdiklərini belə nəql edir: "Həmin dövrdə Gığı dərəsində 15-20-yə qədər kənd Azərbaycan kəndləri idi. Qafanın ətrafında bir-iki kənddə, bir də özündə ermənilər yaşayırdı. Yaşlıların söhbətindən məlum olur ki, 19-cu əsrin əvvəllərində ermənilərin faizi çox aşağı olub. Sonrakı dönəmlərdə qırğınlar törədərək yaxşı yerlərdə məskunlaşmışlar. 1918-21-ci illərdə bizim kəndlərə çox ağır divan tutulub. Bütün kəndlər, Gığı dərəsi tamamilə boşalıb. O kəndlərdən çıxan əhali Naxçıvan tərəfə üz tutub. Culfanın Ərəfsə, Ləkətağ, Əbrəqunus, Kırna, o cümlədən Ordubadın kəndlərində məskunlaşıblar. 1921-ci ildən sonra ara sakitləşəndə bir qismi geri qayıdıb. Gedəndə görüblər ki, kəndlər viranə qalıb, evlər yandırılıb".



Culfanın Qazançı kəndindən olan ***Bahar Hüseynova*** özü o faciənin şahidi olmasa da, anasının danışdıqları indiyə kimi yadındadır: "Qarakilsədən gələnlər, əsasən, Qazançı kəndində məskunlaşıb. Anam Sofulu kəndindən olub. O dövrü xatırlayanda həmişə ağlayırdı. Anası, nənəsi, xalaları yığışıb təndirdə çörək yapırmışlar. Ermənilər qəfildən kəndi mühasirəyə alıblar. Uzun və əziyyətli yol qət edib Naxçıvan tərəfə adlayıblar. Həmin vaxt vəba xəstəliyi tüğyan edirdi. Aclıq, susuzluq və xəstəlik səbəbindən adamların çoxu Qazançı ilə Milax arasında qırılıb".



Rəsmi sənədlərə əsasən Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmışdır. Bütün qəza üzrə 10 068 nəfər müsəlman öldürülmüş və şikəst edilmişdir. Erməni silahlı qüvvələrinə daha çox müqavimət göstərən Ağdü və Vağudi kənd camaatının aqibəti son dərəcə faciəli olmuşdur. 1918-ci ilin avqust ayında ermənilər bir neçə günlük mühasirədən sonra top atəşlərinin köməyilə əvvəl Ağdü kəndinə, sonra isə Vağudiyə daxil olmuşlar. AXC-nin Fövqəladə istintaq komissiyasının üzvü Mixaylovun 1919-cu ildə tərtib etdiyi məruzəsində göstərilir ki, Andronikin quldur dəstələri Vağudi kəndində 400 müsəlmanı məscidə doldurmuş, binaya od vuraraq insanları diri-diri yandırmışdır.

Şahbuzun Nursu kəndindən olan 79 yaşlı ***Mürşüd Umudov***un valideynləri Qarakilsənin Ağdü kəndindəndirlər: "Atam Ərrəhman, dayılarım İnfil kişi – Məmməd Arazın atası və əmisi Əliyar İbrahimov yaxşı atıcılar olub. 1918-ci ildə ermənilər kəndə hücum edəndə ailələrini Nursu kəndinə qoyub, öz yurdlarını erməni quldurlarından təmizləmək və orada qalanlara kömək məqsədilə geri dönüblər. Biçənək aşırımını keçəndən sonra Ərikli kəndinin üstündə Karvansaray olub. Burada Andronikin qoşunu ilə rastlaşıblar. Qoşundan arxada qalan topçunu ələ keçiriblər. Şəkidən altda Əngələvid kəndi olub. Dayımın əmri ilə erməni Andronikin qoşununu vurub".



Bu dövrdə Comərdli kəndindən köçkün düşən əhali Naxçıvan şəhərində və Naxçıvan bölgəsinin 16 kəndində, əsasən, Kültəpə, Yarımca, Ərəfsə, Xanağah, Zeynəddin, Noraşen (indiki Göydərə), Tumbul, Saltaq, Üstüpü, Teyvaz, Milax, Qazançı, Əbrəqunus kəndlərində məskunlaşıblar. Gal kəndində yaşayan ***Nəriman Həsənov***un atası Kərim kişi Qarakilsənin Comərdli kəndində anadan olub. 1905-ci il hadisələri zamanı Naxçıvana gəlib. Ara sakitləşəndən sonra yenidən öz yurduna qayıdıb: "Ana babam Əlimərdan kişi kənd əhalisini quldur ermənilərin basqınından qorumaq üçün iki bürc tikdirib. Cavanları başına yığıb təlim keçib. 1918-ci ildə ermənilərin hücumu zamanı gecəylə qadınları, uşaqları, qocaları kənddən çıxarıb kəndin müdafiəsində dayanıblar. Silah çatışmazlığı və ətraf kəndlərin boşalması comərdlililəri yenidən öz yurdunu tərk etməyə məcbur buraxıb".



Bu qırğınlar sonrası Qafanın Oxçu, Pirdavdan, Şabadin və Atqız kəndinin 1200 nəfər əhalisindən cəmi 216 nəfəri dağları aşaraq Ordubada gəlmiş və orada məskunlaşmışlar. Kənd əhalisinin 167 nəfəri Ordubada çatanadək dağlarda soyuqdan donaraq ölmüş və itkin düşmüş, qalanları isə ermənilər tərəfindən qətlə yetirilmişdir.

1920-ci il yanvarın sonuna qədər ermənilər Zəngəzurun daha 50 kəndindən azərbaycanlıları sıxışdırıb çıxardılar.



Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü Cəlil bəy Sultanov 1920-ci il yanvarın 21-də parlament sədrinə göndərdiyi teleqramda bildirirdi: "Dördüncü gündür ki, Zəngəzur qəzasında nizami qoşunlarla birlikdə erməni quldur dəstələri artilleriya və pulemyot atəşindən istifadə etməklə hücumdadırlar. Cəbhə Qubadlının Xocahan kəndinə qədər 50 verst məsafəni əhatə edir. Qurbanlar hədsiz çoxdur. Əhali vahimə içərisində qaçır və yardım xahiş edir. Təcili tədbirlər görülməsini hədsiz dərəcədə xahiş edirəm. Bədbəxt qəza əhalisinin adından yalvarıram, kağız üzərində etirazlardan fəal hərəkətlərə keçməyi və Azərbaycanın gözəl guşəsini tamamilə xilas etməyi xahiş edirəm. Zəngəzurdan sonra növbə Qarabağındır. Bunları itirməklə türk xalqının və Azərbaycanın qarşısında məsuliyyət daşıyacaqsınız".

Bu müraciətdə bir yanğı, bir həqiqət var idi. Çox təəssüf ki, köməksiz qalan Zəngəzurun ardınca sıra Qarabağa çatacaqdı...

Zəngəzura növbəti ağır zərbəni sovet hakimiyyəti vurdu. 1920-ci il noyabrın 30-da qəbul olunmuş bəyanata əsasən Zəngəzur hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılaraq Ermənistan SSR-nin tərkibinə verildi. Beləliklə, Zəngəzurun qərb hissəsinin Ermənistan SSR-ə bağışlanması ilə Azərbaycanın ərazi bütövlüyü pozuldu, Naxçıvan kimi mühüm strateji əhəmiyyətə malik olan bir bölgə respublikadan aralı düşdü. Bu proses 1929-cu ilə kimi davam etdi. Zəngəzurun digər torpaqları kimi, Mehri rayonunun indiki ərazisinin çox hissəsi, o cümlədən Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verildi. 1930-cu ildə Zəngəzur mahalında Qarakilsə, Gorus, Qafan və Mehri rayonları yaradıldı.

1950-ci ilin ortalarından başlayaraq Zəngəzurda azərbaycanlılara qarşı deportasiya və mənəvi genosid siyasətinin növbəti dalğası başladı. Kolxozların birləşdirilməsi nəticəsində Qafan rayonunun dağ kəndləri daha çox itkiyə məruz qaldı. Bir sıra azərbaycanlı kəndləri bir sovxozda birləşdirilmək adı altında ləğv edilərək sıradan çıxarıldı. Zəngəzurda yaşayan azərbaycanlılara qarşı aparılan repressiyalar, xüsusilə 1965-ci ildən daha fəal, ardıcıl plana uyğun bir şəkil aldı. Mənbələrdə o da qeyd olunur ki, 1948-53-cü illər deportasiyası zamanı Zəngəzurun Şəki kəndinin əhalisi Naxçıvana köçmək istəyini bildirir. Lakin planda əhalinin Kür-Araz ovalığına köçürülməsi bəndini əsas gətirərək bu istək rədd edilir. Dağ kəndinin adamları üçün Kür-Araz ovalığı soyqırımın "səssiz" versiyası idi...

1988-ci ildə başlayan məlum hadisələr "türksüz Zəngəzur" uzunmüddətli planını gerçəkləşdirdi. Qərbi Azərbaycandan ilk qaçqın dalğaları fevral ayının sonları, mart ayı ərzində Zəngəzurdan başlandı. Qafanda, Mehridə, Gorusda, Sisyanda müxtəlif vaxtlarda azərbaycanlılara hücumlar edildi. Sayı onsuz da kifayət qədər azalan azərbaycanlılar son nəfərinədək öz doğma ata-baba torpaqlarından deportasiya olundu.

Culfanın Gal kəndində yaşayan ***Nəsibə Seyidova*** 1968-ci ildə Qarakilsənin Comərdli kəndində anadan olub. Uşaqlığı, gəncliyi bu kənddə keçib: "1988-ci ildə münaqişə qızışanda atama demişdilər ki, Gorusdan, Qafandan ermənilər gəlir, qabağını ala bilmirik. Buradan təcili çıxın, yoxsa kəndi qıracaqlar. Bizim kəndin bir tərəfi Naxçıvana söykənirdi. Dekabrın 4-də, qarlı, şaxtalı bir gecədə comərdli camaatı Salvartı yurdundan Şahbuzun Gömür kəndinə pənah gətirdi".



Naxçıvanın, əsasən, Şahbuz, Culfa, Ordubad bölgəsində məskunlaşan zəngəzurlular və onların törəmələri üçün bu yurd yeri ikinci vətən sayılır. Onlar burada yaşayır, dövlətə, vətənə layiqincə xidmət göstərirlər. Lakin cismən burada olsalar da, ruhən o torpaqlardadırlar. Babalarının narahat ruhlarının dolaşdığı torpaqlarda. Uşaqlıq, gənclik xatirələrinin yaşadığı dağlarda, daşlarda. Mağar qurub toy etdikləri o məhəllələrdə, arzu tutub, xəyal qurduqları yurd yerlərində. Səhənglə su götürdükləri bulaqlarda, axşam olunca yığışıb xalça toxuduqları qonşu evlərində.

Əslən Qafanın Kurudundan olan ***Səttarxan İmaməliyev*** yaşadığı Şurud kəndindən üzü Qapıcığa baxaraq həsrətini bu cür ifadə edir:

*Qapıcıqdan bir baxaydım o yana,*
*Bağrım başı al qanlara boyana.*
*Lənət bu nifaqın himin qoyana,*
*O üzlərə həsrət hamı qalıbdır,*
*Dağların kimi var, kimi qalıbdır.*

Tarixin müəyyən bir dövrü işğal oluna bilər, lakin tarixi tamamilə silmək, məhv etmək olmaz, üzərindən illər keçər, lakin insanların ürəyindəki yurd sevgisi keçməz. Haqqımız olan, bizim olan, babalarımızın bina saldığı o yurd yerlərinə qayıdacağıq.

Əlbət, qayıdacağıq. Biz Zəngəzura qayıdacağıq!

**Ruhiyyə RƏSULOVA**

# Qərbi Azərbaycan xalçaları kodlaşdırılmış rəngarəng bir kitabədir



Dekorativ-tətbiqi sənətin bir qolu olan xalçalarımız xalqımızın yaşam tərzini, məişətini, folklorunu özündə ehtiva etmək baxımından ən qiymətli incilərimizdəndir. Bu maddi mədəniyyət nümunələrimiz sanki kodlaşdırılmış rəngarəng bir kitabədir. Hər biri ayrı-ayrılıqda dövrünə uyğun al-əlvan çeşniləri ilə bir obraz rolunu oynayır. Belə sənət incilərimiz toxunma, bölgə xüsusiyyətlərinə və eləcə də çeşnilərinə görə bir-birindən seçilir. Qədim türklərin əsas məşğuliyyətinə çevrilmiş xalçaçılıq zamanın sınaqlarından çıxaraq günümüzə kimi qorunub saxlanılıb.

Xalçaçılıqda türkbaf üsulu ilə toxunan ilmələr sırf türklərə məxsus olsa da, zaman-zaman başqa millətlərin xalçaları üzərində də müşahidə edilib. Adından da göründüyü kimi, bir vaxtlar xalçalarımız türkbaf ilmə toxunuşu (düyün vurulması) ilə toxunardı. Bu üsulla ərsəyə gətirilmiş xalçalar bu gün bir sənət əsəri kimi dünya mədəniyyəti inciləri sırasındadır. Bəli, kimin nə iddia etməsindən asılı olmayaraq, toxunan bu xalçaların sirli xəzinə olmasının kodları da elə özümüzə məxsusdur.

Vaxtilə Qərbi Azərbaycan bölgəsində toxunan xalçalarda da xalqımızın milli məişətinin izləri, həyat tərzi öz əksini tapmışdır. Bu izlər Göyçə mahalının naxışabənzər təbiətini özündə əks etdirir. Zəngəzur dağlarının bahar təravətini qışda ilmə-ilmə arışlərə düzüb, Novruza kimi xoş ovqatla başa vuran qız-gəlinlərimiz, söz-sənət adamları ilə yanaşı, doğma yurdun gözəlliklərini ilmələrə həkk edərdilər. Onlar ecazkar təbiətin gözəl rənglərini təbii üsulla iplərə boyaq kimi vurar, naxışların estetik baxımdan gözəl görünməsinə çalışardılar.

Qədim yurd yerimizin bütün mahallarında toxunan xalçalar bir-birindən fərqli xüsusiyyətlərinə görə ayrılır. Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndində "Ulduzlu" adlı xalçalar, adətən, tündrəngli boyaqlı iplərlə toxunardı. Bu xalçalardakı rəng çalarları Urudun bitki örtüyündən alınan boyalarla bağlı idi. Həmin xalçaların ara haşiyələrinə vurulan naxışlar isə Urud kəndinin ərazisindəki tarixi abidələr və daş sənduqələrin üzərindəki naxışlarla eynilik təşkil edir.

Qərbi Azərbaycanın etnoqrafik baxımdan da qədim olan bölgələrindən biri kimi Göyçə mahalının Basarkeçər rayonunun Qoşabulaq kəndində toxunan xalçalar da öz kompozisiyana görə digərlərindən seçilir. Bu kənddə toxunan xalçalarda nəbati və həndəsi məntiqli naxışlarla yanaşı, zoonomik motivlərə də tez-tez rast gəlinir.

Xüsusilə qeyd edək ki, Qoşabulaq xalçalarının naxış kompozisiyaları Naxçıvan ərazisində toxunan xalçaların naxışları ilə oxşarlıq təşkil edib. Bu isə, yəqin ki, Naxçıvanla Göyçənin yerləşdikləri ərazilərin bir-birlərinə yaxın olması ilə əlaqədardır.



Digər qədim bir yurd yerimiz olan Pəmbək mahalının Saral kəndində də xalçaçılığa böyük maraq göstərilib. Bunu Saraldakı daş abidələrlə yanaşı, xalçalarında da onun tarixinin öz əksini tapması təsdiq edir. Pəmbək dağının ətəyindən axan Qarabulaq suyundan qüvvət alan bitkilərlə boyanan iplər xalı-xalçalara ilmə-ilmə vurulardı. Evlərimizin bəzəyi olan o xalçalarda əlləri xınalı qızlarımızın barmaq izləri yaşayır bu gün. Pəmbək mahalında toxunan xalçalar da dağlıq və dağətəyi ərazi kimi bu bölgədə hazırlanan rənglərlə özünəməxsus çalarlar qazanıb. Zaman keçdikcə bu təsvirlər fərqli tərzdə təcəssüm olunmağa başlamış, sənət tarixinin ayrılmaz bir hissəsinə çevrilmiş, keçdiyi inkişaf yolunun məntiqi nəticəsi kimi sabit bədii üsluba yiyələnmişdir. Həmin xalçalarda "qoşa damğa", "tək damğa" və romb şəkilli elementlər xovsuz xalça növü olan kilimlərdə və palazlarda geniş yayılmışdır.

Qədim el-obasından didərgin salınan qərbi azərbaycanlılar təbiətin doğma ətrini, acılı-şirinli xatirələrini özləri ilə gətirdikləri həmin o xalçalarla yaşadırlar. Hər biri ayrılıqda bir sənət əsəri olan bu xalçalar indi nisgil, lakin bir ümid nişanəsidir.

Ən gözəl sənət əsərlərimiz səviyyəsinə yüksəlmiş Qərbi Azərbaycan xalçalarının izi ilə getmək bizim haqqımız və borcumuzdur. Qədim türklərin ilmələrə süzülən tarix yaddaşıdır bu naxış dünyamız. Tariximizi saxtalaşdırmağa çalışanlara ən yaxşı cavablar xalçalar üzərində olan min bir sehrli cizgilərdir. Bizə miras qalan xalçaçılıq ənənəsi və toxunan xalçalarımız sadə bir aşyadan çox milli zəkanın ilmələrlə naxışlanmış fəlsəfəsinin kiçik, lakin ən dəyərli nümunələridir. Dağların o üzündə qalmış dədə-baba yurd yerlərimiz Vedibasar, Ağbaba, Şörəyel, Loru, Dərəçiçək, Zəngibasar, Dərələyəz və başqa bölgələrimizdə toxunan xalçalarımız bu gün də evlərimizin, toy-düyünlərimizin bəzəyidir.







✍ Aidə İBRAHİMOVA

## Əli Əsgərovdan növbəti Avropa çempionluğu




Finlandiyanın Salo şəhərində pauerliftinq üzrə (WPC/AWPC) Avropa çempionatı keçirilib. Yarışda çıxış edən Azərbaycan idmançıları 6 qızıl və 1 gümüş medal qazanıblar. Qitə birinciliyində ölkəmizi təmsil edən Naxçıvan idmançısı Əli Əsgərov benç press növü üzrə 90 kiloqram çəki dərəcəsində çıxış edib. Təmsilçimiz 195 kiloqramlıq çəkinin öhdəsindən gələrək birinci olub. İdmançı, eyni zamanda bu göstərici ilə benç press növündə mütləq Avropa çempionu adına layiq görülüb.

Məlumat üçün bildirək ki, Naxçıvan Regional Miqrasiya Baş İdarəsində çalışan Əli Əsgərov güc idman növləri üzrə dünya, Avropa və Avrasiya çempionluğu, pauerliftinq üzrə dünya çempionatlarının, Azərbaycan çempionatları və qran-prilərinin qalib və mükafatçısı kimi uğurlu karyeraya malik idmançılarımızdandır.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

### İtmişdir

Şərur rayonu, Yengicə kəndində yaşamış Dadaşova Fatma Qulam qızının adına olan JN-21[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

"Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Az 185 Fx 474, Az 185 Fx 237, Az 185 Fx 586 dövlət nömrə nişanlı, çəngəlağız yükləyicilərin dövlət nömrə nişanları və qeydiyyat şəhadətnamələri itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Darkənd sakini Abtalıbova Yeganə Əbülfəz qızının adına olan JN-160[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Atabəylər məhəlləsi, bina 1, ev 19-da yaşayan Qasımova Gülbadam Abazər qızının adına olan evin 7013 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Seyidov Təbriz Mirmusa oğluna məxsus Sədərək rayonu, Dəmirçi kəndi, döngə 2/7 ünvanında yerləşən A-015967 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQqapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Aidə İbrahimova, Məcid Əkbərov, Səbuhi Həsənov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 174